

## Azərbaycan, Ermənistan və Rusiya baş prokurorları görüşdü

*Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının görüşü keçirilib. Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının üçtərəfli görüşü ...*

Səh.2


# UNİKAL

№46 (2131) 9 dekabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Qarabağ ermənilari ilə bağlı razılığın əldə olunması yalandır - Prezidentin köməkçisi

*"Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq mexanizmlərin yaradılması haqqında razılığın əldə olunması yalandır". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyev Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Vaşinqtonda Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyi barədə beynəlxalq mexanizmlərin yaradılması barədə guya razılıq əldə olunduğuna dair bəyanatla çıxış etməsinə münasibət bildirərkən deyib. O, Ermənistan Təhlükəsizlik Şurasının katibi tərəfindən aparılmış müzakirələrin mahiyyətinin birtərəfli qaydada təhrif olunduğunu təəssüflə qeyd edib:*

Səh.5

Səh.9

## Sülh danışıqlarının Peterburq mərhələsindən gözləntilər



## "Ölkəmizdə maaş, təqaüd və sosial müavinətlər çox aşağıdır"



*REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal"a müsahibə verib. O, gələn il maaş və pensiyaların nə qədər artacağından, Bakının tıxac problemindən, dərmanların qiymətinin bahalaşmasından və s. məsələlərdən danışıb.*

Səh.4

## İsa Həbibbəyliyə qarşı sərt reaksiyalar başlayıb



*Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) ləğvi, yaxud parçalanaraq ayrı-ayrı ali məktəblərin tərkibində elmi tədqiqat institutları formasında fəaliyyət göstərməsi istiqamətində fikirlər səslənirdi. Nəhayət bir müddət öncə Prezident İlham Əliyevin sərəncamı ilə AMEA-ın bir sıra qurumları yenidən...*

Səh.6

## "Sülhməramlılar öz fikirlərinə əsasən fəaliyyət göstərirlər" - Sabiq nazir



*Ötən gün Xocalı rayonunda azərbaycanlı mütəxəssislərindən ibarət qrupun iştirakı ilə Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə ekoloji monitorinqlərin aparılması üzrə danışıqların növbəti mərhələsi keçirilib. Azərbaycanın Qarabağ ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları...*

Səh.2

# 2022-ci ilin səs-küylü toyları...



***2022-ci ilin bitməsinə sayılı günlər qalıb. Bu il şou-biznesdə bir çox qalmaqallar, boşanmalar və evliliklər baş verib.***

2022-ci ildə şou-biznesdə olan səs-küylü toyları təqdim edirik:

Xalq artisti Alim Qasımovun qızı, Əməkdar artist Fərqanə Qasımovanın evində toy olub. Muğam ifaçısının qızı Fatimə Xalq artisti Natiq Şirinovun musiqiçi oğlu Ümidlə nikah masasına oturub. İlin ən səs-küylü toyu fevralın 2-də baş tutub. Hazırda cütlük valideyn olmağa hazırlaşır.

Müğənni Almaxanım Əhmədli ailə qurub. O, elə 2022-ci ildə nişanlandığı Murad adlı şəxslə nikah masasına oturub.

Xalq artisti Röya Ayxanın müğənni qardaşı İsmayıl 8 il nişanlı olduğu Türkiyə vətəndaşı olan Cansu adlı xanımla nikah masasına oturub.

Müğənni Elşad Qarayevin qızı Həcərin toyu olub. O, fevralda Amil adlı bəylə ailə qurub.

Xalq artisti Ağadadaş Ağayevin də evində bu il toy olub. Ağayevin oğlu Seymurun toyu oktyabrda gerçəkləşib. Mediaya qapalı olan məclisdə şou-biznes nümayəndələri yer alıblar.

Aktyor Natiq Fərzəliyevin qızı Ləman da bu il ailə quranlar sırasında yer alıb. Onun toyu yevlaxda baş tutub.

Şair Nazilə Səfərlinin oğlu Nurlan nikah masasına oturub. O, Nuranə adlı xanımla ailə qurub.

Müğənni Xatun Əliyevanın da evində bir neçə gün əvvəl toy olub. O, oğlu Adili evləndirib. Xatun həm də ilk dəfə oğlunun üzünü göstərib. Adil Gülnar adlı xanımla evlənib.

Xalq artisti Həmidə Ömərovanın oğlu Rəhim iyunda subaylığın daşını atıb. O, Zülfiyyə adlı xanımla ailə qurub.

İTV-nin xəbər aparıcısı Nərmin Salmanova ailə həyatı qurub. O, Arif Salahov adlı şəxslə nikah masasına oturub.

ABŞ-da yaşayan aparıcı Günel Musəvi ikinci dəfə ailə qurub. Onun Amerikada toyu olub. Günel Andi Krişnan adlı əcnəbi vətəndaşla ailə qurub.

"Best Model of Azerbaijan - 2004" qalibi İlqar Əliyevin toyu olub. O, ikinci dəfə ailə qurub. İlqar Leyla adlı xanımla nikah masasına oturub.

Əməkdar artist Zakir Əliyev qızı Aygül üçün toy edib. Aygül Türkel adlı bəylə nikah masasına oturub.

Azərbaycanlı aktrisa Təhminə Rafaellanın da bu il toyu olub. O, amerikalı kinorejissor Henri Hugeslə ailə həyatı qurub.

Xalq artisti Firuz Əliyevin musiqiçi oğlu Abbas Əliyevin də toyu 2022-ci ildə olub. Kamança ifaçısı olan Abbasın özəl gününə şou-biznes nümayəndələri də qatılıblar(axsam.az).



## Gülay Şəbnəmi yalan danışmaqda ittiham etdi

***Müğənni Gülay Zeynallı Şəbnəm Tovuzlunu yalan danışmaqda ittiham edib.***

Sənətçi bu haqda "Xəzər axşamı" proqramında danışıb. Geyimlərdən bəhs edən Gülay aparıcı Mətanət Əliverdiyevanın "Şəbnəm Tovuzlu dedi ki, geyimim 600 manatdır. Sonrada düyməsi qırıldı" sözlərinə belə reaksiya verib: "600 manatlıq paltarın düyməsi qırılar? Qırılmamalıdır. Yəqin 60 manat demək istəyib".

Qeyd edək ki, Şəbnəmin qara libasını 600 manata almasını deməsi müzakirələrə səbəb olmuşdu. Belə ki, sosial şəbəkədə geyimin paylaşılaraq, 40 manata satıldığı göstərilmişdi.

## Cavanşir Quliyevdən Aygün Kazımova ilə bağlı etiraf



***"Yaradıcılıq baxımından sənət adamları fərqlidir. Musiqi yaddaşına görə isə Azərbaycanda Aygün Kazımova kimi müğənni görmədim".***

Bu sözləri Əməkdar incəsənət xadimi Cavanşir Quliyev deyib. Tədbirlərin birində sualları cavablandıran bəstəkar Xalq artisti Aygün Kazımova ilə bağlı etiraf edib. "Onun musiqi yaddaşı ən dahi sənət adamları arasında belə güclüdür. Kiminsə şübhəsi varsa, sübut edərəm. Aygün Kaızmovanı studiyaya dəvət edək. Yeni, heç ifa olunmayan əsəri təqdim etsək, dərhal keçəcək studiyaya, hazırlayıb oxuyacaq. Dərin musiqi yaddaşı var" deyə, C.Quliyev açıqlamasında deyib.

# "Avroviziya-2023"də Azərbaycanı təmsil edəcək ifaçı və mahnı seçimi elan olunub

***"Avroviziya" beynəlxalq mahnı müsabiqəsinin Azərbaycanda rəsmi yayımçısı İctimai Televiziya və Radio Yayımları Şirkəti Böyük Britaniyanın Liverpul şəhərində keçiriləcək "Avroviziya-2023" müsabiqəsində Azərbaycanı təmsil edəcək ifaçı və mahnı seçimini elan edib.***




Bu barədə "Unikal"a İTV-dən məlumat verilib. Seçimlərdə iştirak etmək istəyən ifaçılar və bəstəkarlar dekabr ayının 31-nə qədər öz ifalarını, demo şəklində bəstələdiyi mahnılarını, yaxud öz ifasında olan və Avroviziya üçün hazırlanmış yeni mahnılarını song@eurovision.az elektron ünvanına göndərə bilərlər.

Göndəriləcək mahnıların demo versiyaları tam hazır (sözlər, ifa, xronometraj) və Avroviziya mahnı müsabiqəsinin qaydalarına uyğun olmalıdır. Avropa Yayım Birliyinin (EBU) qaydalarına əsasən, mahnının xronometrajı 3 dəqiqədən çox olmamalıdır. Mahnı 2022-ci il sentyabrın 1-dən əvvəl kommersiya məqsədi ilə buraxılmamalı, ictimai resurslarda və KİV-də (televiziya, radio və ya internet vasitəsilə) yayımlanmamalıdır. Seçimlərdə iştirak edəcək hər kəs özü haqqında qısa məlumat təqdim etməlidir.

Qeyd edək ki, "Avroviziya-2023" mahnı müsabiqəsi Liverpulda 9, 11 və 13 may tarixlərində baş tutacaq.

Müsabiqədəki Azərbaycan nümayəndə heyətinin rəhbəri İctimai Televiziya və Radio Yayımları Şirkətinin Baş direktorunun müavini Vasif Məmmədovdur.



## Əli Əhmədov: "UNESCO-dan ədalət tələb etmək Azərbaycanın haqqıdır"

***"Ermənistan Azərbaycan ərazilərinin işğalı zamanı şəhərləri dağıdıb, bununla da mədəni irsə ziyan vurub".***

"Unikal" xəbər verir ki, bu sözləri Baş nazirin müavini Əli Əhmədov "Mədəni sərvətlərin qorunmasında UNESCO Konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda keçirilən beynəlxalq elmi konfransda çıxışı zamanı söyləyib.

A.Əhmədov bildirib ki, UNESCO-nun konvensiyasına qoşulmuş ölkələr mədəni irsə dəyən zərəri dərk edərək bu problemə daha çox diqqət yetirməlidirlər: "Azərbaycana qarşı vurulan zərbələr, mədəni sərvətlərimizin məhvi ilə bağlı müraciətlərimiz ayrı-ayrı qurumlar, UNESCO tərəfindən sükutla qarşılanırdı. Azərbaycanın haqlı həyəcan səsi eşidilmədi. Torpaqlarımız azad olunduqdan sonra da UNESCO tərəfindən biganəlik hökm sürməkdədir.

UNESCO-nun bu məsələ ilə bağlı mövqeyi ürəkaçan deyil. Ermənistan silah birləşmələri mülki obyektləri, mədəni sərvət hesab olunan obyektləri hücum üçün hədəf seçib, nəticədə zəngin sərvətimiz məhv edilib. Hazırda UNESCO-nun tutduğu mövqe təəccüblüdür. Təşkilat öz öhdəliklərini yerinə yetirmirsə, o zaman alternativ axtarmaq lazımdır. UNESCO-dan ədalət tələb etmək Azərbaycanın haqqıdır".

Baş nazirin müavini bildirib ki, "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası qəbul edilib. Müstəqilliklərini bərpa etmiş Azərbaycan və Ermənistan 1993-cü ildə bu Konvensiyaya qoşulub, onun öhdəliklərini öz üzərilərinə götürüb: "Amma təəssüf ki, Ermənistan işğal dövründə Azərbaycanın mədəni sərvətlərini talayıb. 44 günlük Vətən müharibəsindəki Qələbədən sonra azad edilən şəhər və rayonlarda erməni vandalizminin izlərinin bir daha şahidi olduq".

## Nazir: "Ermənilər mədəni abidələrimizi qəsdən məhv ediblər"

***"Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı mədəni irsimizə sarsıdıcı təsir göstərib".***

"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycanın mədəniyyət naziri Anar Kərimov "Mədəni sərvətlərin qorunmasında UNESCO Konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri" mövzusunda keçirilən beynəlxalq elmi konfransda çıxışı zamanı söyləyib.

Onun sözlərinə görə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan monitorinqlər zamanı mədəni irs abidələrinin qəsdən dağıdıldığı, bir sıra tarixi abidələrin qəsdən dəyişdirildiyi aşkarlanıb: "Buna işğaldan azad edilmiş ərazilərə səfər edən beynəlxalq təşkilatların nümayəndələri də şahidi olublar".

# Ölkənin dərman bazarındakı xaotik vəziyyətin ilginc səbəbləri

## Həkim ekspert deyir ki, dərmanların qiymətinin baha olmasının ilkin səbəbi Tarif Şurasının tətbiq etdiyi vahid qiymət sistemidir

***Ölkənin strateji sahələrindən biri olan əhalinin dərmanla təminatında ciddi problemlər yaranıb. İstər qiymət məsələsində, istər dərmanların keyfiyyətində, istərsə də bir sıra dərman vasitələrinin çatışmazlığı ilə bağlı yaranan vəziyyət ürəkaçan deyil.***

Artıq sosial şəbəkələrdə bir sıra dərmanların isthsalçı ölkələrlə Azərbaycandakı qiymət arasında ciddi fərqlərin olması müzakirə mövzusuna çevrilib. Belə ki, daha bir dərmanın qiymətinin qalxması müzakirələrə səbəb olub. Bildirilib ki, Bakıdakı apteklərdə 75 manat 66 qəpiyə satılan "Qalvus Met" adlı dərman Türkiyədə qat-qat ucuzdur. Diabet xəstələrinin müalicəsində istifadə olunan dərmanın bir qutusu Türkiyədə 153,51 TL-yə ( 13 manat 99 qəpik) satılır. Yəni Bakıda bir qutuya verəcəyimiz pulla qardaş ölkədə təxminən 5 qutu dərman almaq mümkündür.

Qeyd edək ki, qiymət artımı müşahidə olunan tək dərman preparatı deyil. Daha əvvəl də belə hallar aşkar olunmuşdu. Belə ki, sentyabr ayında apteklərdə yodun tapılmaması, daha sonra onun qiymətinin kəskin artması ilə nəticələnmişdi. Əvvəllər 40 qəpiyə satılan yod hazırda 1.20 manatadır.

Diqqətçəkən məqamlardan biri də odur ki, artıq bu məsələ Milli Məclisdə də müzakirə olunmaqdadır. Milli Məclisin son iclasında deputat Rəşad Mahmudov çıxışı zamanı deyib ki, ölkəmizdə bəzi dərman vasitələrinin tapılmaması halları artıb. O bildirib ki, bu, tibb müəssisələri, xəstələr və həkimlər üçün problem yaradır: "Dərman qıtlığı və xəstələrin düşdüyü vəziyyət təcili tədbirlərin görülməsini labüd edir. Səbəbləri doğru dəqiqləşdirmək lazımdır. Burada görünən əsas üç səbəb hiss olunur. İkisi bizdən asılı olmayan beynəlxalq səbəblərdir. Sonuncu məsələ isə ölkədaxili məsələdir. Hər bir qurum problemin ciddiliyini anlayır. Əfsus ki, hələ də problem həllini tapmayıb".

Digər deputat Razi Nurullayev isə bildirib ki, ölkədən xaricə səyahət edənlər geri döndə özləri ilə ehtiyacları olan dərman preparatları alıb gətirir: "Quru sərhədləri bağlıdır, bu, yalnız hava yolu ilə mümkündür. Niyə vətəndaş bir qutudan artıq dərman gətirə bilməz? Vətəndaşın ömürlük, yaxud 3 aylıq, bir illik atacağı dərmanlar var. O vətəndaş digər ölkələrdən gələndə bir neçə aylıq dərmanını alır və düz edir. Bunu mən də etmək istəyirəm. Vətəndaşın xaricdən alıb gətirdiyi dərman bizim apteklərdə 5-7 dəfə baha olur. Mən xarici ölkəyə gedəndə qohum-əqrabamın məndən xahiş etdiyi dərman bir zənbil olur. O insanları tanıyıram ki, xəstədir, o dərmanlara ehtiyacı var, baha olduğuna görə çatdırıb ala bilmir. Heç zaman bir qutudan artıq dərman almamışam. Narahat olmuşam ki, hava limanında üzümə söz gələr. Bu o deməkdir ki, o insan bahaçılığa görə dərmanları ala bilmir, bir neçə il ömrü qısalır. Bu ürəkağrıdıcı mənzərədir. Ya biz dərmanların qiymətini elə tənzimləməliyik ki, fərq bir dəfə olsun, ya da insanların şəxsi istifadəsi üçün gətirdiyi dərmanların sərhədlərdə yoxlamaya məruz qalaraq müsadirə edilməsinin qarşısını almalıyıq. Bu məsələ hökumətlə ciddi müzakirə edilməli və həll yolu qısa zamanda tapılmalıdır".



Məsələ ilə bağlı "Unikal"a açıqlama verən həkim Müşfiq Hüseynov dərmanların ölkəmizdə qiymətinin baha olmasının səbəblərindən danışıb:

"Dərmanların qiymətinin baha olmasının ilkin səbəbi Tarif Şurasının tətbiq etdiyi vahid qiymət sistemidir. Vahid qiymət sisteminin tətbiqi zamanı inkişaf etmiş ölkələrin dərman istehsalçılarının məhsullarına orta qiymət müəyyən etdilər. Müəyyən olunmuş qiymətdən yuxarı satışa icazə vermədilər. Bu da onunla nəticələndi ki, bazarda yalnız aşağı seqment dərmanlar qaldı. Yəni, Rusiya, Çin, Hindistan və s. ölkələrin dərmanlarının satışı həyata keçirildi. Ölkəyə dərman gətirmək problem deyil, problem onu bizim bazarda satmaqdır. Bunun səbəbi isə Tarif Şurasının yalnış qiymət siyasətidir.

Azərbaycanda dərman qiymətlərinin baha olmasının digər səbəbi isə depoların və apteklərin dərmanların qiymətindən pul götürməsidir. Belə ki, depolar 25 faiz, apteklər isə 15 faiz dəyər götürürlər. Bu da ümumilikdə 40 faiz qiymət artımı deməkdir. Əgər mən dərman gətirib onu 10 manata satıramsa, həmin məbləğin 2 manat 50 qəpiyini depo götürür.

Növbəti səbəb isə həmin şirkətlərdə çalışanlarla bağlıdır. Onların xərclərini də hesablasaq, dərmanlar bu qiymətə gəlib çıxır.

Bunun qarşısının alınması üçün isə ilk növbədə yerli istehsal təşkil etməkdir. Bunun üçün isə fabrik qurmağa ehtiyac yoxdur, ona görə nə bizim infrastruktur uyğundur, nə də normal kadr potensialı var. Kimya-biologiya sahəsində yaxşı mütəxəssislərimiz yoxdur.

Yeganə çıxış yolu bizə yaxın olan ölkələri istehsal üçün Azərbaycana buraxmaqdır. Yəni, gəlib burada fabrik açsınlar, Azərbaycanı dərmanla təmin etsinlər və ölkəyə vergi versinlər. Təmin etdiklərindən əlavə miqdarı isə eksport etsinlər. Son illərdə TƏBİB və İqtisadiyyat Nazirliyi bu sahədə ciddi işlər görürlər. Onlar hər şey edirlər ki, ölkəyə dərman istehsalçısı gəlsin.

O ki, qaldı Türkiyədəki dərmanın Azərbaycanda 3-4 qat bahasına satılmasına, həmin dərmanın qeydiyyatı yoxdur. Kənardan gələn dərmandır, xərcləri çoxdur. Yəni, əczaçılıq alverə dönüb", - deyə o bildirib.

***M.İbrahimli***

# Sülh danışıqlarının “Peterburq mərhələsi”ndən gözlantilər

## Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü hesab edir ki, rəsmi Bakının masanın üzərinə qoyulacaq ciddi təklifləri var



***Azərbaycan Prezidenti ilə Ermənistan baş naziri Nikol Paşinyanın növbəti görüşü baş tuta bilər. Budəfəki görüşün də Rusiyada keçirilməsinin planlaşdırıldığı bildirilir. Bu barədə Kremlin sözçüsü Dmitri Peskov məlumat verib.***

O deyib ki, Rusiya Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşün təşkili üçün lazımı yardımı göstərməyə hazırdır. Peskov həmçinin qeyd edib ki, siyasətçilər arasında söhbət Rusiya Federasiyası ərazisində baş verə bilər: ”Rusiya, təbii ki, belə bir görüşün öz ərazisində keçirilməsi üçün lazımi yardımı göstərməyə hazır olacaq. Putinin mətbuat katibi əlavə edib ki, görüşlə bağlı müəyyən anlaşma əldə olunarsa, bu barədə məlumat veriləcək. O, danışıqların Sankt-Peterburqda MDB ölkələrinin başçılarının ənənəvi Yeni il ərəfəsi qeyri-rəsmi görüşü çərçivəsində baş tuta biləcəyini istisna etməyib.

Xatırladaq ki, Belçikanın paytaxtı Brüsseldə keçirilməsi planlaşdırılan görüş Ermənistan tərəfinin Fransa prezidenti Emmanuel Makronun da iştirakında təkid etməsindən sonra baş tutmamışdı. Bundan sonra Ermənistan parlamentinin sədri Alen Semonyan görüş üçün məkan barədə təkcə Brüssellə məhdudlaşmadığını bildirmişdi.

Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Aydın Mirzəzadə ”Unikal”a açıqlamasında deyib ki, Brüssel görüşü Ermənistanın təxribatı nəticəsində təxirə salındı, Azərbaycan o görüşə hazır idi. Hər görüş əvvəlki görüşlərin dayandığı yerdən başlayır. Onun sözlərinə görə, Azərbaycan həmişə irəli getməyin tərəfdarıdır: ”Təəssüf ki, Ermənistan tez-tez mövqeyini dəyişir. Heç də ikitərəfli münasibətləri normallaşdırmağa xidmət edən addımlar atmır. Azərbaycan təmkinlə qonşu Ermənistanla post-münaqişə dövründən sonra əlaqələr qurmaq üçün cəhdlər göstərir”.

Deputat bildirib ki, Rusiya tərəfinin təşəbbüsü təqdirəlayiqdir və görüş ola bilər: ”Rusiyanın hər iki ölkə ilə yaxşı münasibətləri var və Azərbaycan-Ermənistan rəhbərlərinin öz ərazisində görüşlərini keçirməsində böyük təcrübəyə malikdir. Brüssel görüşü Fransanın Azərbaycana qarşı çox qərəzli mövqeyinə görə Azərbaycan Prezidenti tərəfindən qətiyyətlə rədd edildi. Bütün cəmiyyət Prezidentimizin bu addımını dəstəklədi. İndi isə həmin amil yoxdur. Görüşdə sərhədlərin demarkasiya və delimitasiyası, Ermənistan tərəfindən təxribatlara son qoyulması və Azərbaycan-Ermənistan sülh müqaviləsinin imzalanmasına doğru qətiyyətlə addımlamaq məsələləri müzakirə oluna bilər. Sülh müqaviləsi imzalanmalıdır. Azərbaycan buna hazırdır. Azərbaycanın masanın üzərinə qoyulacaq ciddi təklifləri var. Bu təkliflər Azərbaycanla yanaşı Ermənistanın, regionun və dünyanın da xeyrinədir. Ermənsitan hər hansı formada bundan imtina edərsə, bir daha dünya qarşısında hansı niyyətdə olduğunu sübut etmiş olar. Ermənistanın deməsindən asılı olmayaraq, Azərbaycan regionda sülhün olmasında qətiyyətlidir. Ermənistan gec-tez Azərbaycanın dediyi təkliflərə gələcək”.

Politoloq Elxan Şahinoğlu Peskovun Azərbaycan və Ermənistan liderləri arasında görüşün keçirilməsi ilə bağlı təklifini şərh edərkən deyib ki, Rusiya Brüsseldən öncə davranaraq, tərəfləri yenidən bir araya gətirməyə çalışır: “Kreml sahibi Vladimir Putinin təlimatıyla onun mətbuat katibi Dmitri Peskov patronunun diliylə “Rusiya İlham Əliyev və Nikol Paşinyan arasında görüşün keçirilməsinə kömək etməyə hazırdır” təklifini səsləndirib”.Onun fikrincə, Putinin məqsədi vasitəçilikdə Brüsseli qabaqlamaqdır.

”İl ərzində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Brüsseldə 4 görüş keçirilib, 5-ci görüş noyabrda nəzərdə tutulmuşdu, olmadı, dekabra təxirə salındı. Ancaq Paşinyanın “görüşdə Fransa prezidenti Emmanuel Makron da iştirak etsin” tələbi Brüssel görüşünü sual altına qoydu. Bundan istifadə edən Kreml təşəbbüsü ələ almağa çalışır. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Moskvaya dəvət edilməsinin səbəblərindən biri də bu idi. Ceyhun Bayramov Moskvada rusiyalı həmkarı Sergey Lavrovla birgə mətbuat konfransında Azərbaycan və Ermənistan liderlərinin ilin sonuna qədər görüşə biləcəyini istisna etmədiyini söylədi, ancaq məkan göstərmədi. Lavrovun Bayramovla görüşünün ardından Kreml məkan yerini göstərdi: “Görüş Rusiyada keçirilsin”. Rusiya ərazisindəki görüş və müzakirələr heç vaxt Azərbaycanın xeyrinə olmayıb”, - deyə E.Şahinoğlu fikrini tamamlayıb.

***A.Kəlbiyev***

# Ukraynadakı səfirliyimiz Misir Qasımlı ilə bağlı açıqlama yaydı

***Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi Misir Qasımlı və Sübhan Quliyevin məhkəmə işi və həbsi məsələsi ilə bağlı açıqlama yayıb.***

”Unikal” xəbər verir ki, açıqlamada deyilir: ”6 dekabr 2022-ci il tarixində Azərbaycan Respublikası vətəndaşları Misir Qasımlı və Sübhan Quliyev Ukraynanın Kiyev vilayəti Obuxov rayon məhkəməsinin qərarı ilə 8 il müddətinə azadlıqdan məhrum olunublar.

Böyük Britaniya vətəndaşının şikayəti əsasında Ukrayna Cinayət Məcəlləsinin bir sıra maddələri üzrə cinayət işində təqsirləndirilən M.Qasımlı və S.Quliyev 2021-ci ilin 9 iyun tarixindən saxlanılıb.

M.Qasımlının ailə üzvləri səfirliyə məlumat verdikdən sonra, səfirlik məsələ üzrə zəruri tədbirlər həyata keçirib. M.Qasımlının ailə üzvləri və şəxsən özü ilə telefon əlaqəsi saxlanılıb, vəkili və qohumları ilə dəfələrlə görüş təşkil olunub.

İttihamların erməni əsilli şəxslərin sifarişi əsasında olduğu, istintaq zamanı və məhkəmə prosesində bir sıra qərəzli məqamların, eləcə də hüquq pozuntularının mövcudluğu barədə səslənən fikirlərə aydınlıq gətirilməsi məqsədilə səfirlik tərəfindən müvafiq iş aparılıb. Bu məlumatlardan narahatlığın əks olunduğu müraciətlər səfirlik tərəfindən Ukrayna Xarici İşlər Nazirliyinə ünvanlanıb. Ümumilikdə, məsələ üzrə Ukrayna XİN-ə 10 nota, digər qurumlara çoxsaylı məktublar göndərilib, proses səfirliyin diqqət mərkəzində saxlanılıb. Səfirlik məsələ barədə məlumat aldıqdan sonra bütün iclaslarda (səfirliyə məlumat verilmədiyi üçün bir apelyasiya iclası istisna olmaqla) iştirak edib.

Hazırda, müdafiə olunan tərəf məhkəmə qərarı ilə bağlı müvafiq apelyasiya şikayətinin verilməsi istiqamətində iş aparır. Səfirlik, məhkəmənin işinə və hüquqi prosedurlara müdaxilə olmadan prosesin ədalətli şəkildə həyata keçirilməsi məqsədilə, qanun çərçivəsində bütün mümkün zəruri tədbirlər görməkdə davam edir”.

# Vasif Talıbovun oğlu vəzifədən azad edildi - rəsmi

***Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun oğlu Seymur Talıbovun adı Naxçıvan Dövlət Universitetinin rəhbərliyinin siyahısından çıxarılıb.***

Hazırda Naxçıvan Dövlət Universitetinin saytında beynəlxalq əlaqələr üzrə prorektor vəzifəsi qrafası boşdur.

Qeyd edək ki, Seymur Talıbovun bu vəzifədən çıxdığı haqda məlumat daha öncə yayılsa da, Naxçıvan Dövlət Universitetindən təkzib edilmişdi.

S.Talıbov həm də Naxçıvan Ali Məclisinin deputatıdır.

# Rəşad Nəbiyev Avropa İttifaqının nümayəndəsi ilə görüşdü

***Avropa İttifaqının Qonşuluq və Genişlənmə danışıqları üzrə Baş Direktorluğunun Şərq qonşuluğu və institusional quruculuq üzrə direktoru Lourens Mereditin ölkəmizə səfəri çərçivəsində rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə görüşü keçirilib.***

”Unikal” xəbər verir ki, görüşdə, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankı və Avropa İnvestisiya Bankının nümayəndələri iştirak ediblər. Görüş zamanı Aİ-nin İqtisadi və İnvestisiya Planı və bu plan çərçivəsində mümkün prioritet layihələrə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda Aİ-nin maliyyə mexanizmlərindən istifadə, Trans-Avropa nəqliyyat şəbəkələri (TEN-T) üzrə əməkdaşlıq, nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması kimi məsələlər müzakirə olunub.

Aİ nümayəndəsi ölkəmizdə həyata keçirilən nəqliyyat və rəqəmsallaşma layihələri, Zəngəzur Dəhlizinin əhəmiyyəti və işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər barədə məlumatlandırılıb.

Prioritet istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi baxımından Azərbaycan-Aİ Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun ikinci iclasının 2023-cü ildə Bakıda keçirilməsinin önəmi qeyd olunub.

Görüşdə, həmçinin regionlarda telekommunikasiya infrastrukturunun inkişafı istiqamətində “Aztelekom” MMC və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlıq məsələlərinə toxunulub.

# İlham Əliyevin Edi Rama ilə təkbətək görüşü oldu



***Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.***

"Unikal" xəbər verir ki, əvvəlcə rəsmi foto çəkdirilib. Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Xoş gəlmisiniz. Sizi bir daha görməyimə çox şadam. Əvvəla, Albaniyaya səfərim zamanı mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Razılığa gəldiyimiz kimi, biz fəal dialoqu davam etdirəcəyik. Sizin səfəriniz artıq razılaşdırılmış məsələlərin gedişatını izləmək xarakteri daşıyır. Hər iki tərəfdən bütün tapşırıqlar verilib. Heyətlərimiz fəal şəkildə işləyirlər. Mənim rəsmi səfərimin nəticələri olduqca müsbətdir. Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır. Sizə məlumat verdiyim kimi, biz Tiranada səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir. Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq. Bir daha xoş gəlmisiniz".

Albaniyanın Baş nazir Edi Rama deyib: "Təşəkkür edirəm cənab Prezident. Bu, mənim üçün şərəfdir. Mən də təşəkkürümü ifadə etmək istəyirəm. İcazə verin deyim ki, məsələlərin gedişatı ilə bağlı təəssüratım heyrətamizdir. İndi ölkəmizdə Azərbaycan səfirliyinin açılması çox vacib bir məsələdir. Qalan digər məsələlərə gəldikdə isə Siz dediyiniz kimi, biz işi davam etdirməliyik. Təşəkkür edirəm".

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi səhər yeməyi əsnasında geniş tərkibdə görüşü olub.

Daha sonra dövlətimizin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çəkdiyi rəsm əsərini və Leyla Əliyevanın əsərlərinin kataloqunu qonağa hədiyyə edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan, Ermənistan və Rusiya baş prokurorları görüşdü

## Kamran Əliyev: "Qarabağa qanunsuz səfərlərin təşkili yolverilməzdir"

***Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının görüşü keçirilib. Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının üçtərəfli görüşü keçirilib.***



Kamran Əliyev mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyətini, həmçinin Ermənistan tərəfindən ərazilərimizin minalanma prosesinin davam etdirilməsinin yolverilməzliyini qeyd edib.

Baş prokuror Qarabağa qanunsuz səfərlərin təşkilini və ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarının yolverilməzliyini diqqətə çatdırıb.

1-ci və 2-ci Qarabağ müharibələrindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini bildirib.

Eyni zamanda, Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlara tam şəkildə riayət olunduğu bildirib.

Görüş çərçivəsində Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq mexanizmləri müzakirə edilib.

# "Sülhməramlılar öz fikirlərinə əsasən fəaliyyət göstərirlər" - Sabiq nazir

***Ötən gün Xocalı rayonunda azərbaycanlı mütəxəssislərindən ibarət qrupun iştirakı ilə Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə ekoloji monitorinqlərin aparılması üzrə danışıqların növbəti mərhələsi keçirilib. Azərbaycanın Qarabağ ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları isə jurnalistlərin fəaliyyətinə mane olub.***

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, bu hadisələr bir ilk idi: "Bu prosesləri davam etdirmək lazımdır. Bu dəfə sülhməramlılar buraxmadı, gələn dəfə buraxacaqlar. Jurnalistlər hər dəfə gedib orada iştirak etməlidirlər. Gec-tez bu məsələ də həll olunacaq.

Sülhməramlılar öz fəaliyyətlərini 2020-ci ilin 10 noyabr bəyanatına uyğun həyata keçirməlidirlər. Orada mandat məsələsi qeyd olunmayıb. Onlar hazırda müəyyən olunmamış mandatla orada yerləşdiriliblər və öz fikirlərinə əsasən fəaliyyətlərini həyata keçirirlər. Azərbaycan danışıqlar yolu ilə onların mandatını müəyyənləşdirə bilər.

O ki qaldı bizim faydalı qazıntılarımızın talan olunmasına, bu da danışıqların mövzusudur. Azərbaycan tam düzgün hərəkət edib, məsələləri qaldırıb, öz tələblərini irəli sürüb. Əlbəttə, biz gözləmirdik ki, bir gün ərzində bütün məsələlər həll olunacaq, amma bu o demək deyil ki, dinc dayanaq. Bizə lazımdır ki, bu məsələni gündəm-



də saxlayaq və müzakirə edək. Faydalı qazıntılarımızın daşınması ilə bağlı narahatlığımızı sülhməramlılara çatdırmalıyıq, çünki onsuz da hamı bilir ki, bu, Azərbaycanın torpağıdır. Biz tam şəkildə haqlıyıq", - deyə keçmiş nazir qeyd edib.

***Murad İbrahimli***

# Prezidentdən Oruc Zalovla bağlı sərəncam



***Oruc İbrahim oğlu Zalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, o, daxili işlər orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə, ordenə layiq görülüb.

Qeyd edək ki, O. Zalov Daxili işlər nazirinin müavinidir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:1700



# Bakı Ağır Cinayətlər Məhkəməsinə müvəqqəti sədr təyin olundu

***Bakı Ağır Cinayətlər Məhkəməsinə müvəqqəti sədr təyin olunub.***

"Unikal" xəbər verir ki ki, bu vəzifəyə həmin məhkəmənin hakimi Zeynal Ağayev təyin edilib.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri Mahmud Nəbiyev dekabrın 7-də vəfat edib.

# Prokurorluq işçilərinin maaşları artırıldı

***Prokurorluq işçilərinə pul mükafatının verilməsi məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində prokurorluq işçiləri üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.***



"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

Dəyişikliklə prokurorluq işçiləri hər ay vəzifə maaşlarının bir misli deyil, 1,25 misli məbləğində vəzifə maaşına əlavə alacaqlar. Prokurorluq işçilərinə pul mükafatının verilməsi məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində prokurorluq işçiləri üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.

Qanunun indiyə qədərki bəndi isə belə idi:

"Prokurorluq işçiləri hər ay vəzifə maaşlarının bir misli məbləğində vəzifə maaşına əlavə alırlar. Prokurorluq işçilərinə hər il onların əmək haqqının ikiqat həcmindən az olmayaraq maddi yardım verilir".

"Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlarda dəyişiklik layihələri dövlət qulluqçularının əməkhaqqı sisteminin təkmilləşdirilməsi, eyni vahid əməkhaqqı sisteminin tətbiqi ilə bağlı aparılan islahatların davamıdır.

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

# Ermənistan Azərbaycana sülhlə bağlı yeni sənəd göndərəcək

## Armen Qriqoryan: “Sülh müqaviləsi layihəsinin redaktə olunmuş variantını tezliklə Azərbaycana təhvil verəcəyik”

***Ermənistan tezliklə sülh müqaviləsi layihəsinin redaktə olunmuş variantını Azərbaycana təhvil verəcək.***



”Unikal” xəbər verir ki, bunu Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

O, Azərbaycan tərəfinin Ermənistana təhvil vermiş sülh müqaviləsi layihəsi ilə bağlı üçüncü təkliflər paketi üzərində çalışdıqlarını qeyd edib: ”Biz mətn üzərində işi davam etdiririk və bizim redaktə etdiyimiz versiya tezliklə Azərbaycana ötürüləcək”.

Təhlükəsizlik Şurasının katibi vurğulayıb ki, Ermənistan tərəfi ilin sonuna qədər sülh sazişinin imzalanması üçün bütün səyləri sərf edəcək: ”Ermənistan hökumət timsalında bütün səylərini ortaya qoyub ki, biz sülh sazişi əldə edək. İndi ilin sonuna yaxın olduğundan bunun uğurlu olacağını söyləmək çətindir, lakin biz işləməyə davam edəcəyik və hər şey işin nəticəsindən asılıdır”.

***Ağarza Elçinoğlu***

# Azad olunmuş ərazilərdə UNESCO-nun müstəqil missiyasının keçirilməsinə hazırıq

## Azərbaycan XİN: “Ermənistanın mədəni irsimizə qarşı törətdikləri mədəni soyqrımıdır, beynəlxalq konvensiyaların pozulmasıdır”

***Azərbaycan həmişə UNESCO-nun dəyərlərini dəstəkləyib, təşviq edib, təşkilatın fəal üzvünə və etibarlı tərəfdaşına çevrilib.***

“Unikal” xəbər verir ki, bu barədə xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, ICOMOS Azərbaycan Milli Komitəsi, ICOM Azərbaycan Milli Komitəsi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə “Mədəni sərvətlərin qorunmasında UNESCO Konvensiyalarının rolu və onların tətbiqinin təkmilləşdirilməsinin aspektləri” mövzusunda beynəlxalq elmi konfransda deyib.

Nazir müavini bildirib ki, Azərbaycan UNESCO-nun 2021-2025-ci illər üçün İcraedici Şurasına üzv seçilib: “Ölkə UNESCO-nun qlobal təhsil koalisiyasına qoşularaq dünya səviyyəsində təhsilin inkişafına dəstək verib, bu məqsədlə bu təşəbbüsə 1 milyon dollar vəsait ayırıb. Həmçinin, təşkilatın bir sıra proqramlarının həyata keçirilməsində iştirak edib, dəstəkləyib. Azərbaycan hökuməti Afrika İrsi Fonduna 100 min dollar ianə vermək töhfəsini üzərinə götürüb”.

Mahmud Məmməd-Quliyev Azərbaycanın mədəniyyət nümunələrinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini və artıq siyahıda Azərbaycan mədəniyyətini təmsil edən 19 obyekt olduğunu vurğulayıb.

“İki il əvvəl torpaqlarımızı 30 illik işğaldan azad etdik. İşğal illərində Ermənistan sistemli şəkildə Azərbaycana aid mədəni sərvəti dağıdıb, qanunsuz şəkildə mənimsəyib. Siz Ağdam səfərində bunu görmüsünüz. 67 məsciddən 65-i tamamilə məhv edilib. Ermənistanın mədəni irsimizə qarşı törətdikləri mədəni soyqrımıdır, UNESCO prinsiplərinin, beynəlxalq konvensiyaların pozulmasıdır”, - XİN başçısının müavini vurğulayıb.



Nazir müavini qeyd edib ki, Azərbaycan təşkilatla işğaldan sonrakı dövrdə, yenidənqurma prosesi zamanı da əməkdaşlıqda maraqlıdır. O xatırladıb ki, ISESCO bu il Azərbaycana azad texniki missiya göndərib: “Biz azad olunmuş ərazilərdə UNESCO-nun müstəqil texniki missiyasının keçirilməsinə hazırıq, Ermənistan bunun qarşısını alır, prosesi siyasiləşdirir. Ermənistan bu addımlardan uzaq durmalıdır”.

# Sahibə Qafarova Türkmənistan Prezidenti ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova Türkmənistana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən ”Unikal”a verilən məlumata görə, Prezident Sərdar Berdiməhəmmədov dost və qardaş ölkələr olan Türkmənistan və Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsindən razılığını ifadə edib.

Ölkə başçısı qeyd edib ki, xalqlarımız arasında qədim tarixə malik münasibətlər dövlətlərimiz müstəqillik qazandıqdan sonra daha da inkişaf edib. O, yüksək səviyyəli rəsmi səfərlərin bu münasibətlərə töhfələrini qeyd edib. Həmçinin, dost ölkələrimizin parlamentləri arasında münasibətlərin daha da genişlənməsinin vacibliyini vurğulayıb.

Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən spiker Sahibə Qafarova Türkmənistana Milli Məclisin sədri kimi ilk dəfə səfər etdiyini diqqətə çatdırıb. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan Sahibə Qafarova bu illər ərzində dost ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf edərək, bir çox sahələri əhatə etdiyini vurğulayıb. O, ikitərəfli münasibətlərin mühüm istiqamətlərindən olan qanunvericilik orqanları arasında münasibətlərimiz haqqında məlumat verərək, qeyd edib ki, parlamentlərimiz səmərəli əməkdaşlıq əlaqələri qurub və bu əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar var. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları mövcuddur və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyəti əlaqələrin inkişafına töhfə verir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***Hüseyn***

# "France24"ün Araiklə müsahibəsi separatizmi təbliğdir - Leyla Abdullayeva

***Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva “France-24” telekanalının Qarabağdakı erməni separatçılarının tör-töküntülərinin “rəhbəri” Araik Arutyunyandan müsahibə götürməsinə münasibət bildirib.***



”Unikal” xəbər verir ki, diplomat ”Twitter”də yazıb ki, dünyanın tanımadığı qeyri-qanuni qurumun nümayəndəsinin müsahibəsinin “France-24” tərəfindən yayımı separatizmin təbliğinə təkan verir.

“Bu, eyni zamanda, Azərbaycan dövlətinin suverenliyini və ərazi bütövlüyünü pozur, gərginliyi artıraraq sülh səylərinə zərbə vurur”, - L.Abdullayeva bildirib.

# “Brüsselin arzusu Rusiyanı Qafqazdan çıxarmaqdır” - Zaxarova



***Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədində dislokasiya olunmuş missiyası barədə danışıb.***

Zaxarova missiyanın məqsədinin başqa olduğunu bildirib. O, missiyanın səlahiyyət müddətinin uzadılması məsələsinə də toxunub: “Biz bunu şərh etməyəcəyik. Bu mövzu Azərbaycan və Ermənistan arasında müzakirə olunmalıdır”.

“Brüsselin arzusu Rusiyanı regiondan çıxarmaqdır”, - XİN sözçüsü əlavə edib.

# Hərbi prokurorluqda Heydər Əliyevin xatirəsi anıldı

***Respublika Hərbi Prokurorluğunda ümummilli lider Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib.***



Hərbi Prokurorluğun mətbuat xidmətindən “Unikal”a bildiriblər ki, Prokurorluğun binasında yerləşən ”Heydər Əliyev guşəsi”ndə ulu öndərin büstü önünə gül dəstələri düzülərək, xatirəsi bir dəqiqəlik sükutla anılıb. Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev mərasimdə çıxış edərək Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan danışıb.

“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Xanlar Vəliyev tədbirlərin Hərbi Prokurorluq Orqanları tərəfindən icra olunacağını ifadə edib. O qeyd edib ki, Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi qalacaq, xatirəsi dərin ehtiramla anılacaq.

# Türkiyə ilə Ermənistan arasında yük daşımaları başlayır



***Cari ilin sonuna qədər Türkiyə və Ermənistan arasında hava nəqliyyatı ilə yük daşımaları başlayacaq.***

“Unikal” xəbər verir ki, bu barədə “Hürriyet” qəzeti məlumat yayıb. Qəzet yazır ki, artıq proses sona çatmaq üzrədir və nəticədə Türkiyə məhsullarını birbaşa olaraq Ermənistana daşımaq mümkün olacaq.

# “Ölkəmizdə maaş, təqaüd və sosial müavinətlər çox aşağıdır”

## Natiq Cəfərli: “Kəskin artım qərarı verilsə, digər sahələrdə struktur, sistemli dəyişiklik olmasa, bu, inflyasiyanı sürətləndirən amilə çevrilər”

***REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli ”Unikal”a müsahibə verib. O, gələn il maaş və pensiyaların nə qədər artacağından, Bakının tıxac problemindən, dərmanların qiymətinin bahalaşmasından və s. məsələlərdən danışıb.***

***-Bu gün Milli Məclisin plenar iclasında 2023-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda müzakirə olunaraq qəbul ediləcək. Gələn ilin dövlət büdcəsini necə qiymətləndirirsiz?***

-Son illərdə qəbul olunan büdcə ilə indikinin sistem olaraq bir fərqi yoxdur. Həm sosial xərclərə, həm də investisiyalara faiz nisbətində eyni vəsait ayrılır. Bu, uzun illərdir davam edir. 2020-ci ildən sonra büdcədə yenilik ondan ibarətdir ki, ayrıca xərc istiqaməti kimi işğaldan azad olunmuş ərazilərə ayrılan vəsaitlə bağlı bənd salınıb. Bu istiqamətə 2021-ci ildə 2,2 milyard, bu il 3 milyard, gələn il üçün də 3 milyard manata yaxın vəsaitin ayrılması nəzərdə tutulub. Belə desək, son illər sosial xərclərin faiz nisbəti dəyişmir. Büdcənin təqribən 40 faizə yaxını sosialyönümlü hesab olunur. Büdcədən maliyyələşən insanların maaşları, təqaüdlər, sosial müavinətlər və s. sosial xərclər kimi təsnifatda öz əksini tapır. İnvestisiyaların böyük əksəriyyəti infrastruktur layihələrinə yönəlib. Yəni, tək işğaldan azad olunmuş ərazilərdə deyil, ölkə üzrə də investisiya layihələri üstünlük təşkil edir. Büdcədə yeni zavod, fabrik, istehsal sahələrinin yaradılması nəzərə çarpmır. Demək olar ki, 2016-cı ildən bəri büdcənin strukturu, yanaşması və faiz nisbətləri dəyişmir.

***-Siz də qeyd etdiniz ki, büdcədə sosial sahəyə ayrılan vəsait üstünlük təşkil edir. Buna baxmayaraq, 2022-ci ildə olduğu kimi, gələn il həm dünyada, həm də ölkəmizdə bir sıra sahələr üzrə qiymətlərin artacağı proqnozlaşdırılır. Bunları nəzərə alsaq, sosial sahəyə ayrılan vəsait yetərli olacaqmı?***

-Problem ondan ibarətdir ki, ölkəmizdə maaş, təqaüd və sosial müavinətlər çox aşağıdır. Hətta, onların kəskin artırılması qərarı verilsə, digər sahələrdə struktur, sistemli yanaşma olaraq dəyişikliklər olmasa, bu, inflyasiyanı sürətləndirən amilə çevrilər. Yəni, pul kütləsi artır, təkliflər isə yerində qalır. Bazarın təkliflər həcmi artmır, nəticədə inflyasiya sürətlənir. Ona görə də qiymət artımı və onun əhaliyə vurduğu ziyanın konpensasiya olunması ilə mübarizədə maaş, pensiya və sosial müavinətlərin artırılması yetərli deyil. Bunun üçün başqa qərarlar da verilməlidir. Gələn il təqaüdlərin 15 faiz indeksləşməsi nəzərdə tutulur. Çox güman ki, büdcədən maaş alanların aylıq ödənişlərində də 15 faizlik indeksləşmə olacaq. Bu, yetərli deyil. Azərbaycanda ərzaq inflyasiyası 22 faizdən yuxarıdır. Bu onu göstərir ki, insanların real gəlirlərində ciddi artım olmayacaq. Bu baxımdan, paralel addımların atılmasına ehtiyac var. Məsələn, elektrik enerjisinə və təbii qaza tətbiq olunan limitlər ləğv edilməlidir ki, insanların güzəranına müsbət təsir göstərsin. Həmçinin, vergi və gömrük rüsumları azaldılmalıdır. Bunu bir neçə dəfə qeyd etmişik ki, ərzaq məhsullarındakı əlavə dəyər vergisi (ƏDV) 18 faizdən 2 faizə endirilməlidir. Dərman preparatlarında və ərzaq məhsullarında gömrük rüsumları sıfırlanmalıdır. Gələn il dünyada baş verən prosesləri nəzərə alsaq, gömrük rüsumları sıfırlana bilər. Bu əsasən dərmanlarda çox vacibdir. Belə ki, dərmanların 96 faizi xaricdən gətirilir. Xaricdən idxal edilən istənilən dərmanın üzərinə 15 faiz gömrük rüsumu gələndə bu, qiymətləri artıran amilə çevrilir. Ölkə daxilində istehsal yoxdursa, bu qədər yüksək gömrük rüsumlarının olması məntiqsizlikdir. Bu dediklərim olarsa, maaş və pensiyaların 15 faiz artımı gələn il üçün əhalinin real dolanışığına müsbət təsir göstərə bilər.

***- Bu günlərdə Milli Məclisin iclasında bəzi deputatlar dərmanlarla bağlı məsələni qaldırdı. Söhbət həm dərman qıtlığından, həm də onların qiymətinin baha olmasından gedir. Dərman qiymətlərinin azaldılması üçün hansı addımlar atılmalıdır?***

-Azərbaycanda dərman bazarına ən pis təsir edən qərar Tarif Şurasının dərman preparatlarının tənzimlənməsi qaydaları oldu. Bu qaydalar tətbiq edildikdən sonra dərmanların qiyməti artır, keyfiyyəti isə aşağı düşür. Ona görə ki, istehsalçı ölkələr və molekullar üzrə təsnifat qərarı alınır. Bu zaman molekulların ən ucuzu, keyfiyyətsizi alınıb ölkəyə gətirilir, keyfiyyətli dərman qıtlığı yaranır və bu zaman qiymətlərin yüksəlməsi prosesi baş verir. Ölkədə Tarif Şurasının tənzimlənməsi tətbiq olunandan, onlarla kiçik və orta şirkətlər iflas edib bazardan çıxdılar. Böyük şirkətlər qalıblar ki, onlar da qiyməti diktə etməkdə çətinlik çəkmirlər. Ümumiyyətlə, dərman preparatları ilə bağlı ən vacib qərar Traif Şurasının tənzimləmə mexanizminin ləğv olunmasıdır. Bununla yanaşı, bu sahə ilə bağlı gömrük rüsumları sıfırlanmalı, ƏDV isə nəzərəçarpacaq formada aşağı salınmalıdır. Dərman preparatlarında qiymətin 35-40 faizini vergi və gömrük rüsumları təşkil edir. Belə ki, 10 manata aldığımız dərmanın 4 manatını vergi və gömrük rüsumu formasında ödəyirik. Ölkədə daxili istehsal yoxdursa, bu qədər yüksək vergi və gömrük rüsumu olmamalıdır. Bu, həssas və sosial sahə olduğundan, qərarlara yenidən baxılmasına ehtiyac yaranıb.

***-Hər kəsin gündəlik qarşılaşdığı problemlərdən biri də Bakıda tıxacların çox olmasıdır. Qeyri-rəsmi məlumata görə, paytaxtda 5 milyon əhali yaşayır. Bir neçə ildir regionların inkişafı proqramı icra olunur. Buna baxmayaraq, insanlar regionlardan paytaxta axışır. Regionlardan şəhərə axının qarşısını almaq üçün hansı işlər görülməlidir?***

-Azərbaycanda elə bir şərait yaranıb ki, Bakı şəhərinin və Abşeron yarımadasının yükünün azaldılması üçün ənənəvi üsullardan istifadə etmək mümkün deyil. Bu, effekt vermir. Regionların inkişafı ilə bağlı bir neçə proqram qəbul olundu, milyardlarla vəsait xərcləndi və effekt vermədi. Burada əhalini günahlandırmaq da mümkün deyil. Bütün iqtisadi fürsətlər Bakı şəhəri və Abşeron rayonunda cəmləşdiyindən, əhali də paytaxta axışır. Hazırda bu vəziyyəti dəyişmək üçün imkan yaranıb. Burada söhbət işğaldan azad olunmuş ərazilərdə əhalinin məskunlaşdırılmasından gedir. Yaxın 10 il ərzində işğaldan azad olunmuş ərazilərə təqribən 1 milyona yaxın əhalinin köçürülməsini təmin etmək üçün orada sosial infrastrukturu, biznes mühitini, iqtisadi infrastrukturu qura bilsək, bu zaman Bakının yükü azalar. Bununla yanaşı, başqa qərarlar da ola bilər. Paytaxtın köçürülməsi mümkünsüzdür. Ona görə ki, çox bahalı və həddən artıq zaman ala biləcək addım olar. Amma bir çox dövlət və hökumət orqanlarını, universitetləri regionlara köçürmək mümkündür.



***-Zaman-zaman bank kreditlərinin yüksək olması ilə bağlı fikirlər səsləndirilir. Necə düşünürsüz, növbəti ildə faizlərin azaldılması üçün addımlar atıla bilərmi?***

-Bunun yeganə çarəsi rəqabətli mühitin genişləndirilməsidir. Azərbaycan hökuməti, eləcə də Mərkəzi Bank Türkiyə, Avropa və ABŞ banklarının rahat şəkildə ölkə bazarına daxil olmasının qarşısını kəsən maneələri aradan qaldırmalıdır. Azərbaycanda bank sisteminin 85 faizinə 4 bank nəzarət edir. Demək olar ki, bütün banklarda kommersiya, biznes, ipoteka, istehlak, avtomobil və s. kreditlərinin hər birinin faizləri eynidir. Rəqabət mühitinin artırılması üçün xarici bankların Azərbaycanın daxili bazarına rahat şəkildə daxil olması, fəaliyyət göstərməsi lazımdır. Məsələn, Gürcüstanda 4 böyük Qərb bankı fəaliyyət göstərir. Orada rəqabət olduğu üçün faizlər bizdən ən azı 2 dəfə aşağıdır. Rəqabətli mühit güclənməlidir ki, faizlər aşağı düşsün. Bunu inzibati qaydada etmək mümkün deyil. Yəni, dövlət özəl banklara əmr verə bilməz ki, faizləri aşağı salın. Bunun iki yolu var. Xarici bankları cəlb edib rəqabətli mühiti artırmaq və ya Mərkəzi Bank uçot dərəcəsini 2-3 faizə salıb, banklara ucuz faizlə pul kütləsi təqdim edir. Mərkəzi Bankın verdiyi resurslara faiz təyin etməkdə dövlətin iştirak hüququ var. Bu zaman, onlara aldıqları vəsaiti daha ucuz formada kredit vermələri ilə bağlı müqavilə bağlanır. Bunun da mənfi cəhəti ondan ibarətdir ki, Azərbaycan kimi ölkələrdə çox ucuz kreditləşmə olsa, bu həmin an valyuta bazarına təsir göstərəcək. Bu da dollar, avro və digər valyutaların bahalaşmasına səbəb olacaq. Rəqabətli mühitin genişlənməsi daha məntiqli və dayanıqlı qərar ola bilər.

***Anar Kəlbiyev***

# Qarabağ ermənilәri ilә bağlı razılığın әldә olunması yalandır - Prezidentin köməkçisi

***"Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq mexanizmlərin yaradılması haqqında razılığın əldə olunması yalandır".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri üzrə şöbə müdiri Hikmət Hacıyev Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Vaşinqtonda Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyi barədə beynəlxalq mexanizmlərin yaradılması barədə guya razılıq əldə olunduğuna dair bəyanatla çıxış etməsinə münasibət bildirərkən deyib.

O, Ermənistan Təhlükəsizlik Şurasının katibi tərəfindən aparılmış müzakirələrin mahiyyətinin birtərəfli qaydada təhrif olunduğunu təəssüflə qeyd edib:

"Oktyabrın 13-də Azərbaycan mediasına verdiyim müsahibədə Vaşinqtonda keçirilmiş müzakirələrin məzmunu və mahiyyəti barədə ətraflı məlumat verilib. Bir daha qeyd etmək istərdim ki, guya Vaşinqtonda Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquq və təhlükəsizliyi barədə beynəlxalq mexanizmlərin yaradılması haqqında razılığın əldə olunmasına dair açıqlamalar yalandır. Danışıqlarda hər hansı məsələnin qaldırılması həmin məsələyə dair razılığın əldə olunduğu demək deyil. Sentyabrın 27-də Vaşinqton şəhərində, Ağ Evdə ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan tərəfindən təşkil olunmuş görüşdə tərəfimizdən bir daha bildirildi ki, Azərbaycan Qarabağda yaşayan erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələsini heç bir beynəlxalq tərəfdaşla müzakirə etməyəcək, bu, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında ölkəmizin daxili işidir, milli suverenlik məsələsidir və hər hansı beynəlxalq mexanizmin yaradılmasından söhbət belə gedə bilməz. Azərbaycan bu məsələni nə Ermənistan və nə də digər dövlətlə və təşkilatla müzakirə etmək fikrində belə deyil. Görüşdə ABŞ nümayəndəsi tərəfindən də Azərbaycanın suverenliyinə hörmətlə yanaşıldığı bir daha qeyd olundu".



H.Hacıyev bildirib ki, Praqa və Soçidə qəbul edilmiş bəyanatlara zidd olaraq, Ermənistan rəsmilərinin Azərbaycanın suveren əraziləri barəsində bu kimi açıqlamalarla çıxış etməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı qəsd kimi qiymətləndirilir:

"Bu və son vaxtlar Ermənistan rəsmiləri tərəfindən səsləndirilən digər ziddiyyətli açıqlamalar və irəli sürülən lazımsız yeni elementlər Ermənistan tərəfinin qəsdən sülh müqaviləsi üzrə danışıqları pozmaq və yalnız danışıqlar imitasiyası yaratmaq niyyətini göstərir. Ermənistan tərəfinə bu kimi destruktiv siyasətindən əl çəkməyi, regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması üçün siyasi iradə nümayiş etdirərək sülh müqaviləsi üzrə danışıqlarda ciddi surətdə iştirak etməyi tövsiyə edirik".

# "YAŞAT" Fonduna daxil olan və xərclənən vəsait açıqlandı

## 432 şəhid ailəsi və qazilərin təhsil haqqının qarşılanması üçün tədbirlər görülüb

***Bu günə kimi "YAŞAT" Fondunun hesabına 75 846 318.85 vəsait mədaxil olub, 71 612 351.53 AZN məbləğində vəsait xərclənib.***

"Unikal" xəbər verir ki, bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov Fondun 2 illik fəaliyyətinə dair mətbuat konfransında çıxışı zamanı deyib. O bildirib ki, hazırda fondun büdcəsində 4 233 967.32 AZN vəsait var: "Xərclənən vəsaitdən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə 41 042 300.00 AZN, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri üzrə 1 347 611.19 AZN, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması üzrə 6 772 442.30 AZN, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üzrə 22 449 998.04 AZN olub. Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 41 042 300.00 AZN təşkil edir. Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 448, itkin ailə üzvlərinin 7 və yaralıların 6 798 müraciəti olmaqla ümumilikdə 12 253 müraciət təmin edilib".

Fondun rəhbəri vurğulayıb ki, ölkə ərazisində 3 004 şəhidin ailə üzvləri, habelə 6 230 yaralı olmaqla ümumilikdə 17 670 şəxslə görüşülüb, ehtiyacları qeydə alınıb və 14 744 şəxsi öhdəliyə götürüb.

Elvin Hüseynov bidirib ki, bu günə kimi "YAŞAT" Fondu 184 şəxsi müalicə məqsədi ilə Türkiyəyə göndərib. Onun sözlərinə görə, onlardan 177-si ağır yaralı, 7-si isə şəhid ailəsi üzvüdür: "Müalicə alanlardan 160-ı ölkəyə geri qayıdıb. Hazırda 23 ağır yaralının və 1 şəhid ailəsi üzvünün müalicəsi Türkiyədə davam edir. "YAŞAT" Fondunun dəstəyi ilə ölkəmizə gətirilən Türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib. Ötən il martın 10-da Türkiyədən dəvət olunan həkim tərəfindən komada olan ağır yaralılar müayinə edilib".

Fondun rəhbəri əlavə edib ki, ötən ilin fevral mart aylarında İsraildən hərbi xəsarətlərin müalicə edilməsi üzrə ixtisaslaşmış 8 mütəxəssis gətirilib, qeydiyyatı aparılmış ağır göz problemləri olan 148 nəfər şəxs müayinə edilib. Müayinə nəticəsinə uyğun olaraq 30 nəfər əməliyyat edilib, əməliyyat nəticəsində 2 nəfərin görmə qabiliyyəti bərpa olunub. 55 nəfərə protez göz qoyulub, 82 nəfər isə sadəcə müayinə edilib".

Daxil olan mədaxildən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 41 042 300.00 AZN təşkil edir. Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 448, itkin ailə üzvlərinin 7 və yaralıların 6 798 müraciəti olmaqla ümumilikdə 12 253 müraciət təmin edilib. 27 sentyabr 2020-ci ildən sonra dünyaya gələn 104 şəhid övladı ilə bağlı Fond tərəfindən "Onlar bizə əmanət" layihəsi həyata keçirilib. Layihə çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədi ilə 1 000 AZN məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5 000 AZN məbləğində depozit hesabı açılıb. Hər iki valideynini itirən 7 şəhid övladının adına 5000 AZN məbləğində depozit hesabı açılıb. Onların içərisinə Bərdə və Gəncə terrorunda valideynlərini itirmiş uşaqlar da daxildir.



Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə "YAŞAT" Fondu tərəfindən xərclənən vəsait 1 347 611.19 AZN təşkil edir. Bildirilib ki, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 339 və yaralıların 93 müraciəti daxil olmaqla ümumilikdə 432 müraciət təmin edilib: "Fondun təşəbbüsü ilə təhsil haqqının qarşılanması üzrə təhsil müəssisələri tərəfindən 492 581.99 AZN vəsait qarşılanıb. Təhsil haqqı üzrə 242 müraciət Fond tərəfindən, 114 müraciət isə Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb".

***Anar Kəlbiyev***




# DİM doktorant və dissertantlara müraciət etdi

***Dövlət İmtahan Mərkəzi doktorant və dissertantlara müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: ""Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanına edilmiş 26 noyabr 2022-ci il tarixli 1888 nömrəli dəyişikliyə əsasən dissertasiyanı Azərbaycan və ya rus dillərində yazan və müdafiə edən iddiaçılar ingilis, alman və ya fransız dillərindən birini xarici dil kimi seçərək imtahan verirlər. Yeni qaydalara əsasən dissertasiyanı ingilis dilində yazan və müdafiə edən iddiaçılar xarici dil imtahanından azad edilirlər. Eyni zamanda, dissertasiya işini ingilis dilində yazan və müdafiə edən əcnəbi vətəndaşlar isə Azərbaycan dili imtahanından azad edilirlər. Bunun əksinə olaraq, dissertasiyanı Azərbaycan dilində yazan və müdafiə edən əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar isə Azərbaycan dilindən imtahan verirlər".

# Tibb işçilərinin maaşlarına əlavənin verilmə müddəti uzadıldı

***"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti uzadılır.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, bu müddət 2023-cü il yanvarın 1-dək kimi uzadılıb.

Qeyd edək ki, əvvəl bu müddət 2022-ci il noyabrın 1-nə kimi nəzərdə tutulmuşdu.



## Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir

***Türkiyənin Ankara şəhərində 14-cü Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək məqsədilə Türkiyəyə səfər edən Azərbaycan nümayəndə heyəti Ankara şəhərində Heydər Əliyev Parkını ziyarət edib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyularaq hörmət və ehtiram nümayiş etdirilib.

Sonra Azərbaycan nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib, məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib. Nümayəndə heyətinin rəhbəri Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev "Xatirə kitabı"na ürək sözlərini yazıb.

Azərbaycan nümayəndə heyətini ölkəmizin Türkiyədəki səfirliyinin və hərbi attaşelik aparatının əməkdaşları müşayiət ediblər.

Daha sonra general-leytenant H.Piriyev Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və Baş Qərargahın ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.

Görüşlər zamanı ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.

## Sahibə Qafarova Türkmənistanda təltif edildi

***Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədovun sərəncamı ilə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova "Əməkdaşlığın inkişafındakı xidmətlərinə görə" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, orden Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov tərəfindən təqdim olunub.

Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşən Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədov deyib ki, Türkmənistan və Azərbaycan arasında iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması təkcə iki ölkə xalqlarının mənafeyinə uyğundur.

## Vilayət Eyvazov bu rayonlara rəis təyin etdi

***Azərbaycanda iki rayona - Qubadlı və Qobustan rayon polis şöbələrinə (RPŞ) yeni rəis təyin edilib.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, bu barədə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, Qubadlı RPŞ-nin rəisi polis polkovnik-leytenantı Bəhruz Cabbarov vəzifəsindən azad edilərək Qobustan RPŞ-nə rəis təyin olunub.

Bundan başqa, nazirin digər əmri ilə Siyəzən RPŞ-nin əməliyyat işləri üzrə rəis müavini polis polkovnik-leytenantı Əhməd Nəcəfov vəzifəsindən azad olunaraq Qubadlı RPŞ-nə rəis təyin edilib.

## Elm və Təhsil Nazirliyi 46 milyonluq kompüter və avadanlıq alıb

***Elm və Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti Və Təchizat İdarəsi kompüter və noutbukların satın alınması üzrə tenderə yekun vurub.***

"Unikal" dövlət vahid elektron satınalmalar portalına istinadən xəbər verir ki, tenderin qalibi Bestcomp Group QSC seçilib və müqavilə üzrə şirkətə 39,4 milyon manat ödəniləcək.

İdarə həmçinin, "Maşın və avadanlıqlar"ın alınması ilə bağlı tenderin nəticəsinə görə, Simplex QSC-yə 6,7 milyon manat, təhsil müəssisələrində cari təmir işlərinə görə "VK GROUP N1" MMC-yə 520,7 min manat ödəyəcək.

# İsa Həbibbəyliyə qarşı sərt reaksiyalar başlayıb

### AMEA şöbə müdiri: "Qışın günündə niyə ehtiyac içində şəraitsiz gecəqondularda zülm çəkməliyəm?!"

***Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) ləğvi, yaxud parçalanaraq ayrı-ayrı ali məktəblərin tərkibində elmi tədqiqat institutları formasında fəaliyyət göstərməsi istiqamətində fikirlər səslənirdi. Nəhayət bir müddət öncə Prezident İlham Əliyevin sərəncamı ilə AMEA-nın bir sıra qurumları yenidən formalaşan Elm və Təhsil Nazirliyinə verildi.***

Bundan sonra AMEA-da həm struktur, həm də idarəetmə istiqamətində bir sıra köklü dəyişikliklər edildi. Eyni zamanda, bir müddət öncə AMEA-da rəhbərliyin yenidən formalaşması üçün seçki keçirildi və İsa Həbibbəyli AMEA prezidenti seçildi. Uzun illər akademik Ramiz Mehdiyevin rəhbərliyi və nəzarəti altında olan AMEA-nın yeni dönəmdə fərqli istiqamətlər götürüləcəyi düşünülsə də, mövcud durum fərqli yöndə cərəyan edir. Belə ki, yeni rəhbərliyin, xüsusən də AMEA prezidenti İsa Həbibbəylinin qurumun üzərinə düşən öhdəliklərə və hazırkı tələblərə uyğun fəaliyyət göstərə bilmədiyi ortaya çıxıb.



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasov AMEA prezidenti İsa Həbibbəylinin fəaliyyətini tənqid edib. Bu barədə fikirlərini "Unikal"la bölüşən professor deyib ki, yeni rəhbərlik də idarəçilikdə yolverilməz və bu günə qədər narazılıq yaradan metoddan istifadə edir.

"Vəzifələr tutub yalnız özünü güdənlərin özlərinin, övladlarının, nəvə-nəticələrinin hər şeyi olduğu halda, Vətən övladlarının Vətəndə adi daldalanacağı, bir tikə çörəyi də olmamalıdırmı, İsa müəllim?! Sizlərdən nə zaman Azərbaycanımızın canı qurtaracaq?!Deputatsınız, direktorsunuz və saireisiniz, başa düşdük. Bəs onda niyə AMEA prezidenti postunu da tutmusunuz? Siz və sizin əhli-əyalınız eyş-işrət içində yaşadığı halda, mən rəhbəri olduğunuz akademiyanın şöbə müdiri ola-ola qışın günündə niyə ehtiyac içində şəraitsiz gecəqondularda zülm çəkməliyəm?! Bəyəm, dövlətini sevən, xalqına xəyanət etmək fitrətinə sahib olmayan, millət balalarına doğruları deyən, rüşvət almayan, büdcəni talamayan, sövdələşib qrant yeməyən, dürüstlüyə üstünlük verən bir alim ehtiyac və xəstəlik içində çırpınmalı, siz isə vəzifələrin belində, məsuliyyətdən kənarda bolluq, israf içində yaşamalısınız?! Bunu bəndə də götürsə, Allah götürməz!", - deyə İ.Abbasov bildirib.

Alimin sözlərinə görə, ötən gün bir cavan dissertant deyir ki, müdafiə prosesində akademik-professor heyətinin ona verdiyi bütün işgəncələrə, aşağılamalara ona görə dözür ki, diplom alandan sonra əvəzini ikiqat çıxacaq: "Bu səbr etməyi ona rüşvət və mənəviyyatsızlıq qazanında bişib cızdağı çıxmış, 5 diploma sahib, akademşəbəkənin qırılmaz həlqəsi, əlahiddə fırıldaqçılıq və cibgirlik səriştəsi olan elmi rəhbəri tövsiyə edib. Deyib ki, bala, yaxın vaxtda diplomunu alıb bu gün payladığın pulların iki-üç qatını çıxaracaqsan. Yeni nəsil daha yeməlidir. Mənim yetişdirməmsən, bilirəm, nəyə qadirsən, heç kəsə acımayacaqsan, qarşına çıxan tələbənin, dissertantın canını alıb dərisini soyacaqsan. Elmi dərəcə diplomunun qüdrətini biləndən sonra yerə, göyə sığmayacaqsan! Bəli, cavan dissertantlar rəhbərlərinin yolunu getməyə bir növ and içirlər. Rüşvət qanına qəltan edilmiş və əhd bağlanmış, işbazlara və heysiyyətsizlərə fəaliyyət imkanı yaratmış bu naməzmun dissertasiya müdafiələri (yaxud alverləri) və əcaib diplomlaşdırmanın milli təhlükəsizliyimizə hansı problemlər yaradacağı haqqında, yəqin ki, bir gün dərindən düşünüb-daşınmaq və hərəkətə keçmək zərurəti yaranacaq!

Müqayisə üçün deyim ki, aşağı-yuxarı mənim qədər diploma sahib olan İsa Həbibbəylinin (hazırkı baş akademikin!) timsalında məlum alim-akademiklər bu qədər pulu, mülkü hansı yolla əldə ediblər? Elmi əsər məsələsi deyil, çünki eləyə qalanda onlardan mənim də var (Hərçənd ki, ölkədə sanballı elmi fəaliyyət imkanları tam məhdudlaşdırılıb. Ona görə də müqayisədə deyirəm. Təklikdə isə bir onu bilirəm ki, heç nə bilmirəm). Bunlarınkı xalqa xidmət və ya dürüstlük, sədaqət məsələsi deyil, çünki mənimlə rəqabət aparmağa yaxın düşmək iqtidarında deyillər".

Əslində, hazırda elm sahəsində çalışan, illərini Azərbaycan elminin inkişafına həsr edən alimlərin elmlə deyil, məcburiyyətdə bu cür bürokratik və idarəetmə problemlərinə vaxt ayırmaları, buna etiraz etmələrinin özümə ciddi bir siqnaldır. Elmin idarə edilməsinin özü bir elmdir. Görünən odur ki, akademik İsa Həbibbəyli hələ də bu gerçəyi tam anlamayıb. Yaxud da bu gerçək onun üçün səmərəli bir yol deyil. Unutmaq lazım deyil ki, Azərbaycanda elmin inkişafını istəyən və bunun üçün sözügedən sahədə islahatlara start verən Prezident İlham Əliyevdir. Əgər ortada hansısa narazılıq varsa, alimlər, professorlar, yenə də idarəetmə problemlərindən gileylənirlərsə, deməli, yeni rəhbərlik ölkə başçısının iradəsinə qarşı gedir. Hər halda, ortada olan mənzərə budur.

***Z.Məmmədli***

# AQTA xəbərdarlıq edib

## Aparılan yoxlamada 400-dən çox saxta alkoqollu içki aşkarlanıb

***Yeni il qabağı spirtli içkilərin kütləvi istehlakını nəzərə alaraq, Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əhalini diqqətli olmağa çağırıb.***

Bu barədə "Unikal"a AQTA-dan bildirilib. "Təəssüflə bildiririk ki, bayram ərəfəsində kustar üsulla spirtli içki hazırlayaraq insan sağlamlığı və həyatı bahasına qazanc əldə etməyə çalışan "işbaz"lara rast gəlinir. Son vaxtlar AQTA tərəfindən həyata keçirilən monitorinq zamanı marketlərdə xeyli sayda saxtalaşdırılmış müxtəlif növ spirtli içki aşkarlanıb. Belə ki, cari ilin noyabr ayı ərzində həyata keçirilən yoxlamalar zamanı 8 ticarət obyekti və 3 ictimai iaşə müəssisəsində, ümumilikdə, 406 ədəd saxta alkoqollu içki aşkar olunub. Bununla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb" - xəbərdarlıqda qeyd edilib.

Aşkar olunmuş saxta alkoqollu içkilərlə bağlı məlumat aşağıdakı kimidir:

İçkilərin bir qisminin üzərində istehsal və son istifadə tarixi və partiya nömrəsinin silindiyi, qablaşdırmasında aşkar pozuntuların olması faktı, başlıq hissələrinin kustar üsulla bərkidildiyi, eyni zamanda malların orijinaldan kəskin fərqləndiyi müşahidə edilib.

Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi - ticarət obyekti - 6 ədəd.

İçkilərin bir qismində məhsulun qablaşdırılmasında istifadə olunan falqanın və aksiz markanın ikinci dəfə kustar üsulla sonradan yapışdırıldığı müəyyən edilib.

Səbail rayonu, Bülbül pr., ev 7 - ticarət obyekti - 31 ədəd.

Baxış zamanı alkoqollu içkilərin butulkalarının təkrar istifadə olunan butulkalar olduğu, həmçinin başlıq hissələrinin kustar üsulla bərkidildiyi, eyni zamanda malların orijinaldan kəskin fərqləndiyi müşahidə edilib. Sözügedən içkilərə dair qaimə və istehsalçının qida təhlükəsizliyi reyestrindən çıxarışı təqdim edilməyib.

Xətai rayonu, Xocalı pr., ev 21 - ticarət obyekti - 41 ədəd.

Baxış zamanı alkoqollu içkilərin butulkalarının təkrar istifadə olunan butulkalar olduğu, həmçinin başlıq hissələrinin kustar üsulla bərkidildiyi, eyni zamanda malların orijinaldan kəskin fərqləndiyi müşahidə edilib. Sözügedən içkilərə dair qaimə və istehsalçının qida təhlükəsizliyi reyestrindən çıxarışı təqdim edilməyib.

Xətai rayonu, G.S.Mehmandarov küç., ev 6 - ticarət obyekti - 14 ədəd.

Məhsulların doldurulması və aksizində müəyyən şübhələr yaranıb.

Nəsimi rayonu, 20 Yanvar küçəsi 15A - ictimai iaşə müəssisəsi - 14 ədəd.

Təkrar istifadə olunan butulkalar, başlıq hissələrinin kustar üsulla bərkidilməsi, orijinal "Organic Line" içkilərində aksiz markasının alt hissəsində qalan qapağının üzərində "OL" möhürünün olmasına baxmayaraq, sözügedən butulkalarda həmin möhürün olmaması müəyyən edilib.

Suraxanı rayonu, Qaraçuxur ştq, C.Qurbanov küç., ev 5 - ictimai iaşə müəssisəsi - 1 ədəd.

Şüşəsindəki yazılar, butulkanın baş hissəsindəki məhsulun saxta olmamasını fərqləndirən "OL" nişanının olmaması, eyni zamanda malların orijinaldan kəskin fərqləndiyi müəyyən edilib.

Daşkəsən rayonu, A.Abdullayev küç., ev 45 - ticarət obyekti - 14 ədəd.

Şüşə butulkaların qapaqlarının üzərində orijinaldan fərqli olaraq "O və L" hərflərinin qeyd olunmadığı, həmçinin butulkanın içərisindəki spirtli içkinin orijinaldan fərqli miqdarda doldurulduğu və başlıq hissəsinin şüşə butulkaya kustar üsulla təkrar bərkidildiyi müəyyən edilib.

Daşkəsən şəhəri, H.Əliyev prospekti 26 - ticarət obyekti - 8 ədəd.

Şüşə butulkaların qapaqlarının üzərində orijinaldan fərqli olaraq "O və L" hərflərinin qeyd olunmadığı, həmçinin butulkanın içərisindəki spirtli içkinin orijinaldan fərqli miqdarda doldurulduğu və başlıq hissəsinin şüşə butulkaya kustar üsulla təkrar bərkidildiyi müəyyən edilib.

Goranboy rayonu, Civəzadə küçəsi - ictimai iaşə müəssisəsi - 28 ədəd.

İstehlak olunmuş araqların butulkalarından təkrar istifadə olunması, həmçinin başlıq hissələrinin kustar üsulla hazırlanaraq bərkidildiyi, eyni zamanda məhsulların orijinaldan kəskin fərqləndiyi müəyyən edilib.

Ağdam rayonu, Bənövşələr qəsəbəsi - ticarət obyekti - 154 ədəd.

Orqanoleptik baxış zamanı köhnə aksiz markaların yapışqanlarının qalıntılarının müşahidə edildiyi, yeni aksiz markaların qapağın digər tərəfindən yapışdırıldığı, qapağın butulkaya birləşən hissələrinin müəyyən edilmiş normadan artıq olduğu, orijinaldan kəskin fərqləndiyi müəyyən edilib.

Bildirilib ki, adətən, belə məhsulların qablaşdırılmasında və markalanmasında uyğunsuzluqlar müəyyən edilir, keyfiyyət və təhlükəsizlik göstəricilərini təsdiq edən sənədlər (sertifikat, qaimə, faktura və s.) yoxlamaya təqdim olunmur: "Mütəxəssislərin rəyinə görə, kustar üsullarla saxta spirtli içkilərin hazırlanmasında metil (metanol) spirtindən istifadə edilir. İstehlakçıların zəhərlənməsinə səbəb olan metil texniki, sənaye spirtidir və onun qida kimi istifadə olunması yolverilməzdir. Bu zaman istehlakçılar güclü zəhərlənmə halları, hətta ölüm təhlükəsi ilə üzləşə bilərlər. Metil spirtinin az miqdarda qəbulu belə, orqanizmdə çox ciddi fəsadlara səbəb olur. Nəticədə mərkəzi sinir və mədə-bağırsaq sistemi, xüsusilə gözün torlu qişasını zədələməklə görmə ilə ələqədar olan ağır fəsadlar yaradır. Qida üçün nəzərdə tutulmayan, insan sağlamlığına təhlükə yaradan maddələrin spirtli içki məhsullarının hazırlanmasında istifadə olunması qəti şəkildə yolverilməzdir, həmçinin vətəndaşların həyat və sağlamlığına qəsd törətdiyi üçün cinayət məsuliyyəti yaradır. Adətən, dələduzlar gizli və qapalı məkanlarda bu cür qanunsuz fəaliyyətlə məşğul olduğundan onların aşkarlanması və ifşa olunmasında vətəndaşların dəstəyinə və bu istiqamətdə ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var. Vətəndaşlardan belə qanunsuz hallarla bağlı aidiyyəti dövlət orqanlarına, o cümlədən Agentliyin "1003 - Çağrı Mərkəzi"nə məlumat verməleri xahiş olunur.

Bayram günlərində özlərinin və yaxınlarının həyatını təhlükəyə atmamaq, xoşagəlməz hallarla rastlaşmamaq üçün vətəndaşlar diqqətli olmalı, keyfiyyəti və təhlükəsizliyi şübhə doğuran, saxta spirtli içkiləri istehlak etməməlidirlər. Əhalidən xahiş olunur ki, ictimai iaşə, satış və digər məkanlardan qida məhsulları alarkən məhsulun qablaşdırmasına, etiket məlumatlarına diqqət yetirsinlər, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun sənədləri tələb etsinlər".

***Anar Kəlbiyev***






# Fuad Nağıyev: "2026-cı ilə qədər turizm gəlirləri 4 dəfə artacaq"

***"İlin əvvəlindən verdiyimiz proqnoz özünü doğruldub və turizm sənayesi 50 faiz bərpa olunub".***

Bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev "Azərbaycan Turizm Sammiti 2022"də çıxışı zamanı deyib.

O bildirib ki, turizmin inkişafı üçün 10 istiqamət müəyyənləşdirilib: "Bu istiqamətlər 2022-2026-cı illər Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına yönəlib. Hədəfimiz 2026-cı ilə qədər xaricdən turist axınını 4 milyon nəfərə, daxili turizmi isə 6 milyon nəfərə çatdırmaqdır. Hesab edirik ki, 2026-cı ilə qədər turizm gəlirləri 4 dəfə artaraq 11,2 milyard manata çatacaq və bunun da 5,5 milyard manatı əcnəbi turistlərin xərcləmələrinin payına düşəcək".

# Bank dələduzluğunda yeni üsul - Xəbərdarlıq

***Bank müştərilərinə aid məlumatlar dələduzlar tərəfindən yeni üsuldan istifadə edilərək müxtəlif formalarda mənimsənilir.***



Azərbaycan Banklar Assosiasiyasından (ABA) "Unikal"a verilən məlumata görə, bu, qurumun nəzdində fəaliyyət göstərən müvafiq Ekspert Qrupu tərəfindən aparılan təhlillər nəticəsində müəyyən edilib.

Belə ki, dələduzlar tərəfindən bankların çağrı mərkəzlərinin telefon nömrələrinə (adətən 3 rəqəmli) oxşar nömrələrdən bank müştərilərinə kredit məhsullarının təklifləri ilə bağlı zənglər edilir. Bu əsasda bank adından çıxış edən dələduzlar yeni kredit məhsulunun təklifi adı altında müştəriyə aid müxtəlif məlumatları əldə edərək sonradan şəxsi mənafeləri naminə istifadə edirlər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycan Banklar Assosiasiyası bir daha xəbərdarlıq edir ki, bank hesablarına və bank kartlarına sahib olan şəxslər bu kimi dələduzluq hallarına qarşı sayıq və ehtiyatlı olmalı, fərdi və ödəniş kartlarına dair məlumatları heç bir halda üçüncü şəxslərə təqdim etməməlidirlər.

Bu növ dələduzluq halları ilə qarşılaşdığınız təqdirdə dərhal müştərisi olduğunuz bankla əlaqə saxlamağınızı xahiş edirik.

# “Tərtər işi”ndə hərbçilərə böhtan atanlar xalqdan üzr istəsin - TƏKLİF



***Uzun müddət gündəmdən düşməyən “Tərtər işi” üzrə məhkum olunan günahsız hərbçilərin tam bəraət alması ətrafında müzakirələr davam edir.***

“Unikal”ın məlumatına görə, “Tərtər işi” üzrə ictimai araşdırmanın fəallarından olan Ərəstun Oruclu hərbçilərə böhtan atanların Azərbaycan xalqından üzr istəməsini təklif edib. O, ”Tərtər işi” üzrə istintaq qrupunun rəhbəri Qasım Məmmədov başda olmaqla böhtan atanların üzr istəyəcəkləri təqdirdə cəzalarının yüngülləşə biləcəyini bildirib: “Onların artıq bəraət almış “Tərtər işi” qurbanlarının hamısından, ailələrindən, bütün Azərbaycan xalqından üzr istəmələrini təklif edirəm. Üzr istəyin ki, cəzanız bir az yüngül olsun. Nə qədər gec deyil, üzr istəyin ki, sizə az da olsa mərhəmət göstərməyə əsas olsun”.

Xatırladaq ki, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu dövlətə xəyanət və digər maddələrlə təqsirli bilinərək məhkum olunmuş ümumilikdə 19 şəxs barəsində olan məhkəmə qərarlarına prokurorluğun müraciəti əsasında yeni açılmış hallarla əlaqədar yenidən baxılıb və həmin qərarlar ləğv edilərək müvafiq məhkəmələrə qaytarılıb.

Bundan sonra müvafiq məhkəmələr tərəfindən həmin işlər üzrə qərarlar ləğv edilib, qeyd olunan şəxslərin dövlətə xəyanət ittihamı üzrə təqsirlilikləri sübuta yetirilmədiyindən onlara bəraət verilib və azadlığa buraxılıblar.

Bəraət alanlar ümumilikdə 19 nəfərdir.

# İtkin düşən 2 məktəbli tapıldı

***Yasamal rayonunda bir gündə iki məktəblinin itkin düşməsi ilə bağlı xəbər yayılıb.***



Daxili İşlər Nazirliyinin (DİN) KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev “Unikal”a bildirib ki, polis əməkdaşları tərəfindən hər iki məktəblinin ailə üzvlərinə demədən getdiyi digər ünvanlarda olması müəyyən edilib.

DİN rəsmisinin sözlərinə görə, kriminal hal yoxdur.

Xatırladaq ki, dekabrın 6-da saat 15 radələrində Yasamal rayonu, M.Seyidov küçəsində yerləşən 21 saylı orta məktəbdə təhsil alan 2008-ci il təvəllüdlü X.Q. orta məktəbdən çıxdıqdan sonra itkin düşüb.

Həmin gün saat 12 radələrində isə Yasamal rayonu, M.Bünyadzadə küçəsində yerləşən 153 saylı məktəbdən çıxan 2010-cu il təvəllüdlü A.Ş. itkin düşüb.

# Sumqayıt-Bakı qatarı 20 yaşlı gənci vurdu

***Sumqayıt-Bakı elektrik qatarının vuraraq öldürdüyü şəxsin kimliyi məlum olub.***

”Unikal” xəbər verir ki, elektrik qatarının vurduğu şəxsin 2002-ci il təvəllüdlü Hacı Ağazadə Əmralı olduğu bildirilir.

Hadisə Abşeron rayonu, Güzdək qəsəbəsi ərazisində qeydə alınıb.

Faktla bağlı araşdırma aparılır.

# Neftin qiyməti cüzi artdı

***ICE London qitələrarası birjasında keçirilən ticarət əməliyyatlarının gedişində, “Brent” neftinin ixracına dair 2023-cü ilin fevral müqaviləsinin dəyəri 0,83% artaraq, 1 barelə görə 77,81 dollar təşkil edib.***

”Unikal” xəbər verir ki, Nyu-Yorkun NYMEX əmtəə birjasında gələn ilin yanvarında ixrac etməklə WTI markalı neftin 1 barelinin qiyməti 0,92% artaraq, 72,67 dollara bərabər olub.

***“44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə Zəfər Gününü yazdı. Bayramlarımız sırasına daha bir möhtəşəm tarixi gün əlavə olundu. Bu tarix 30 il həsrətlə gözlədiyimiz sevinci xalqımıza yaşatdı. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğala son qoydu, düşmənin illərdir qurduğu istehkamları yarıb kecdi, hərbi texnikasını məhv etdi, qənimət kimi götürdü, Ermənistanı kapitulyasiyaya məcbur etdi”.***

# “Zəfər Paradı dövlətçilik salnaməmizdir” - Millət vəkili



Bu fikirləri “Unikal”a Milli Məcisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov səsləndirib. O bidirib ki, tarixdə 8 noyabr Azərbaycanın qələbə, Ermənistanın məğlubiyyəti oldu. Onun sözlərinə görə, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qələbə Bəyannaməsini fəxrlə, Ermənistanın baş naziri Nikol Paşinyan isə gizli şəkildə imzaladı. İndi Azərbaycan xalqı qüdrətli Sərkərdə və müdrik lider İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşib bayram tədbirlərini keçirir, ermənilər isə Paşinyanın istefasını tələb edir:

“Məhz bu fərqli yaşananlar qalib Azərbaycanın üstünlüklərinin, məğlub Ermənistanın məhvinin aydın mənzərəsini təqdim edir. Hər bir tarixi gün onun mahiyyətinin açıqlanmasında, bu günümüz və gələcəyimiz üçün önəminin düzgün dəyərləndirilməsində ən zəngin mənbədir. Bu baxımdan illər keçdikcə Zəfər Gününün, eyni zamanda, onun sevincini paylaşmaq üçün keçirilən tədbirlərin əhəmiyyəti daha aydın görünəcək. Müstəqillik tariximizdə müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, ordu quruculuğu istiqamətində əldə etdiyi uğurların fonunda ilk dəfə Qələbə paradı keçirilirdi. Qələbəmizdə birliyimiz də mühüm rol oynadı. Cənab prezidentin göstərdiyi dəmir yumruq kimi birləşdik. Qarabağ məsələsində, müharibə müddətində xalqımız dövlət başçısının ətrafında sıx birləşdi. İstər evləri dağılan sakinlər, istərsə də erməni terroruna məruz qalan vətəndaşlar böyük iradə, birlik, həmrəylik nümayiş etdirdilər. Kimliyindən asılı olmayaraq hər kəsin bir amalı vardı: qələbə qazanacağıq! 44 günlük qalibiyyətli Vətən müharibəsində düşmənə ağır zərbələr vuraraq torpaqlarımızı işğaldan azad edən Ordumuz bu şanlı zəfərini 10 dekabrda Azadlıq meydanından dünyaya nümayiş etdirdi. Zəfər Paradında müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir. Parada, həmçinin, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş olunmuşdur. Şuşa şəhəri azad edildikdən sonra, Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağı parada gətirilmişdir. Bu parad digər hərbi paradlardan tamamilə fərqlənirdi. Adından da göründüyü kimi, bu parad özündə Qələbə əhval-ruhiyyəmizi, sevincimizi ehtiva edirdi. Parad öz möhtəşəmliyi, ağırlığı, mahiyyəti ilə seçilirdi. Peşəkar, döyüş ruhlu ordusu olan xalqın müstəqilliyi əbədidir. Azadlıq meydanında torpaqlarımızı azad edən əsgərlər sıra addımı ilə qələbəni qeyd edirdilər. Paradı izləyən hər kəs qürur və sevinc göz yaşı axıdırdı”.

Komitə sədri onu da qeyd edib ki, həm də Birinci Qarabağ savaşında, Vətən müharibəsində canlarından keçən şəhidlərin ruhları bizimlə idi: “Onu da deyim ki, cənab prezident Silahlı Qüvvələrin 100 illiyində keçirilən paradda çıxışı etmişdi. Ölkə başçısı söyləmişdi ki, düşməni məğlub edəcəyik və Azadlıq meydanında qələbə paradı keçirəcəyik, zəfər bayrağını bura gətirəcəyik. İki il sonra cənab prezident bunları reallaşdırdı. Gördük ki, bizim güclü, qüdrətli, qətiyyətli, müdrik liderimiz var. Şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan torpaqları azad olundu. İndi Azərbaycan əsgəri təmas xəttində deyil, dövlət sərhədində xidmət edir. Ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. 44 günlük müharibədə Azərbaycandan siyasi, mənəvi dəstəyini əsirgəməyən, dostluğun, qardaşlığın, birliyin, həmrəyliyin nümunəsini bir daha nümayiş etdirən Türkiyə Cumhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Bakıya gələrək ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevlə birgə paradda iştirak edəcək. Qələbə paradı həm də Türkiyə-Azərbaycan birliyinin, həmrəyliyinin növbəti təqdimatı olacaq. İşğaldan azad olunan torpaqlarımızda dalğalanan üçrəngli zəfər bayrağımız parada gətiriləcək. Ordumuzun gücü, möhkəm hüquqi bazaya əsaslanan diplomatik qələbəmiz nəticəsində soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, Azərbaycanın həyatında yeni dövr başlayacaq. Bu gün xalqımız o inamın reallıqda öz əksini tapmasından qürurlanır. Millətimiz hər zaman zəfər arzulayırdı. Hesab edirəm ki, bu parad xalqımız, dövlətimiz üçün tarixdə çatışmayan boşluq idi. Prezident İlham Əliyevin həmin ərəfədə xalqa müraciətində qeyd etdiyi kimi “Azərbaycanın müasir tarixində yeni mərhələ başlayır. Bu mərhələdə işğaldan azad olunmuş ərazilərin bərpası, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması həyata keçiriləcək. Ən əsası isə budur ki, biz yeni mərhələyə daha güclü və qüdrətli Azərbaycanla qədəm qoyuruq”.

***H.İsgəndərov***

## 5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Sosial şəbəkələrdə söz azadlığından sui-istifadə edilməməlidir!

### Hüquqşunas Elvin Səlimov: “ Sosial şəbəkədə şəxsin şərəf və ləyaqətinə toxunularsa, mülki qaydada iddia tələbi irəli sürə bilər”



***Azərbaycanda internetdən istifadə edənlərin sayının artması ölkəmizdə söz azadlığının təmin olunmasının göstəricilərindən biridir. Ölkəmizdə sosial şəbəkə istifadəçilərinin öz fikirlərini açıq şəkildə ifadə etməsinə hər hansı məhdudiyyət qoyulmur.***

Artıq sosial şəbəkələr onlayn media məkanına çevrilməkdədir. Bütün bunlar söz azadlığının təmin olunması baxımından təqdirəlayiq sayılsa da, sosial platformalardan istifadə bəzən insan hüquqlarının pozulmasına da gətirib çıxardır. Bəs görəsən sosial şəbəkələrdə bu cür arzuolunmaz halların qarşısının alınması üçün hansı hüquqi tədbirlərin görülməsinə ehtiyac var? Necə etmək olar ki, bu söz, fikir və məlumat azadlığının pozulması kimi qiymətləndirilməsin?

Bu günlərdə Azərbaycan Mətbuat Şurası sosial şəbəkə istifadəçilərinə və vətəndaş mediası fəallarına müraciət edib. Şuradan verilən məlumata görə, müraciətdə deyilir ki, internet və multimedia şəbəkəsinin əhatə dairəsinin böyük sürətlə genişlənməsi, müasir texnologiyaların yaratdığı sonsuz imkanlar dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da yeni informasiya mühiti formalaşdırıb. Çağdaş dövrün əsas platformaları olan sosial şəbəkələr və vətəndaş mediası bu gün cəmiyyətin məlumatlandırılmasında əhəmiyyətli rol oynayır.

Bu platformalardakı ayrı-ayrı səhifələr, populyar şəxslər, blogerlər və ən fərqli düşüncəyə sahib sosial şəbəkə istifadəçiləri hər gün əhali qruplarında maraq doğuran məlumatlar yaymaqla, müxtəlif mövzuları gündəmə gətirməklə azad informasiya və diskussiya şəraitini genişləndirir, cəmiyyət həyatının fəal iştirakçılarına çevrilirlər”.

Müraciətdə o da bildirilib ki, təcrübə göstərir ki, sosial şəbəkələr və vətəndaş mediası dərk olunmuş məsuliyyətə əsaslandıqda söz və ifadə azadlığına önəmli töhfələr verir, ictimai düşüncə palitrasını zənginləşdirir. Deyilənlərlə yanaşı, təəssüf ki, bu platformalarda bəzi şəxslər azad mühitin imkanlarından sui-istifadə edərək etik qaydaları pozur, aşırı aqressiya və qərəz sərgiləyir, böhtan və təhqirə, vulqar ifadələrin işlədilməsi hallarına yol verir, kin və nifrət təbliğatçılarına çevrilirlər. Belə davranış tərzi verilən məlumatların ictimai çəkisini heçə endirməklə bərabər, ölkəmizin informasiya məkanına neqativ ab-hava gətirir, hətta bəzi hallarda hüquqi məsuliyyət yaradır.

Özünütənzimləmə qurumu olaraq Azərbaycan Mətbuat Şurası üçün informasiya müstəvisində cəza mexanizmlərinin dövriyyəyə girməsi birmənalı qaydada arzuedilməzdir. Deyilənləri nəzərə alaraq, biz bütün sosial media mənsublarını, bu platformanın fəallarını insanların şərəf və ləyaqətini qorumağa, şəxsi həyatın toxunulmazlığı prinsipinə hörmətlə yanaşmağa, cinayət, zorakılıq, qəddarlıq və intihar hallarının təşviqinə yol verməməyə, söyüş və vulqar ifadələrin işlədilməsindən çəkinməyə, uşaqların şəxsi həyatı barədə məlumatları yaymamağa, onları zədələyən, mənəvi-psixoloji durumuna mənfi təsir göstərə biləcək zərərli bilgiləri paylaşmamağa, terror, xurafat və cəhalət təbliğatçılarına qarşı barışmaz olmağa, bir sözlə, ölkə jurnalistlərinin VIII qurultayının qərarı ilə təkmilləşdirilmiş ”Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”ndakı müddəalara riayət etməyə çağırırıq.

Mətbuat Şurası etik dəyərlərə əməl olunmasına dair çağırışına səmimi yanaşılacağına, qurumun ictimai missiyasına həssas münasibət göstəriləcəyinə inanır, informasiya cəmiyyətinin bütün iştirakçılarına fəaliyyətlərində uğurlar arzulayır.

Hüquqşünas Elvin Səlimov “Unikal”a açıqlamasında son zamanlar saxta profillərdən yayılan məlumatlar, yaranan məsuliyyət haqda bir sıra zəruri prosedurları açıqlayıb. O, bildirib ki, saxta profillərdə müəyyən haqsızlıqlar edən, birəkdən yanlış məlumat yayan şəxslər tapıldıqda, kiminsə hüquqları pozulduqda qanunvericiliklə müvafiq addımlar atılır. Onun sözlərinə görə, saxta profillərin tapılması üçün müəyyən məlumatlar əldə olunmalıdır. Bu zaman İP nömrələr və digər detallar müəyyənləşdirilir.

Həmsöhbətimiz deyir ki, sosial şəbəkələr üzərindən təhqir, böhtan, şərəf və ləyaqətin alçaldılması ilə bağlı hansısa nüanslar varsa, bu zaman qanunvericiliyə müvafiq addım atıla bilər. Lakin şəxsin şərəf və ləyaqətini alçaldacaq hansısa nüanslar yoxdursa, bu zaman qarşı tərəf təkzib tələb edə bilər: “Şəxsin şərəf və ləyaqətinə toxunularsa, mülki qaydada iddia tələbi irəli sürə bilər. Böhtan və təhqir olduğu halda, Cinayət Məcəlləsinin 148-ci maddəsinə əsasən məhkəməyə şikayət etmək olar”.

O, həmçinin qeyd edib ki, Cinayət Məcəlləsinin 148-ci maddəsinə görə, İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə - min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Mətbuat Şurasından İranın Azərbaycandakı səfirliyinə müraciət

***Mətbuat Şurası İdarə Heyətinin üzvləri İranın Azərbaycandakı səfirliyinə müraciət edib.***

“Unikal” xəbər verir ki, müraciətdə deyilir: ”Bir neçə gün əvvəl Azərbaycan mediasında noyabrın 24-də 14 nəfər İran vətəndaşının qeyri-qanuni yolla Azərbaycan ərazisinə keçməsi və ermənilərin yaşadığı bölgəyə daxil olması barədə məlumat yayıldı. Bunun ardınca Azərbaycan mediası həmin şəxslərin İran vətəndaşı olmasını təsdiqləyən faktlar, sənədlər də təqdim etdi. Eyni zamanda, sözügedən şəxslərin Qarabağdakı terrorçu ermənilərə təlim keçmək üçün gəldikləri barədə mülahizələrə də mediada geniş yer verildi. Nəhayət, bütün bunlarla bağlı İranın Azərbaycandakı Səfirliyi tərəfindən lazımi açıqlama verilməsi tələbi ilə ortaya haqlı suallar qoyuldu. Səfirliyinin davamlı susqunluğu fonunda mediada noyabrın 30-da Azərbaycanın ermənilərin yaşadığı ərazisinə daha 13 İran vətəndaşının keçdiyinə dair faktlara əsaslanan məlumat yayıldı.

Bu hadisə və İrandan Ermənistana silah satışı, sonradan həmin silahların Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazisinə keçirilərək oradakı qeyri-qanuni erməni dəstələrinə çatdırılması məsələsi bu gün də Azərbaycan mediasının əsas mövzularından biri, cəmiyyətimizi dərindən narahat edən məsələlərdir. Yaranmış durumda, istər-istəməz, belə bir qənaət formalaşır ki, İran təcavüzkar Ermənistanın Azərbaycana qarşı hərbi cəhətdən gücləndirməyə və ölkəmizin işğaldan azad olunmuş ərazilərində vəziyyəti gərginləşdirməyə çalışır.

Azərbaycan mediasının çoxsaylı müraciətlərinə baxmayaraq, İranın Azərbaycandakı Səfirliyinin indiyədək bu barədə hər hansı münasibət açıqlamadan susqunluq nümayiş etdirməsi dərin təəssüf və narahatlıq doğurur.

Ümid edirik ki, Azərbaycan mediası adından ünvanladığımız bu müraciət cavabsız qalmayacaq, İranın Azərbaycandakı Səfirliyi olaraq, qeyd edilən ciddi məsələlərə dair müvafiq rəsmi mövqe bildirəksiniz.

Əks təqdirdə, Azərbaycan mediası məlum hadisələrdə İranın neqativ rolunun olmasını həqiqət kimi qəbul etmək məcburiyyətində qalacaq və fəaliyyətini bütünlüklə bu reallığa əsaslanaraq quracaq”. “Yaxın zamanlarda Şuşaya turist səfərləri başlayacaq”.



# Azərbaycanda regional turizm şuraları yaradıla bilər

***Dövlət Turizm Agentliyi regional turizm şuralarının yaradılması imkanlarını nəzərdən keçirir.***

”Unikal” xəbər verir ki, bunu Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib.

O, bu barədə rəhbərlik etdiyi qurumun və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Bakıda keçirilən “Azərbaycan Turizm Sammiti”nda danışıb.

Agentlik sədri həmçinin qeyd edib ki, Azərbaycanda turizm sənayesi sürətlə bərpa olunur: “Bu ilin 11 ayında ölkəyə 1 milyon 458 mindən çox turist gəlib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə çoxdur. Türkiyə və Səudiyyə Ərəbistanından turist axınının bərpası 90 %-dən çoxdur. Bəzi ölkələrdən gələn turistlərin sayı isə 2019-cu ilin nəticələrini üstələyib”, - o deyib.

“Turizm sektorunda hər il orta hesabla 20 % artım gözləyirik. 2026-cı ilə qədər Azərbaycana gələn xarici turistlərinin illik sayının 4 milyona çatması planlaşdırılır. Yerli turistlərin illik sayı isə 6 milyon olacaq. Turizmə xərclənən vəsait 4 dəfə artaraq 11,2 milyard manat olacaq. Bunun 49 %-i xarici, 51 %-i isə yerli turistlərin payına düşəcək”, - F.Nağıyev əlavə edib.

# 2022-ci ilin ötən dövründə Goranboyda yeni açılmış iş yerləri - Rəsmi statistika

***Goranboy rayonu üzrə 2022-ci ilin 9 ayı ərzində rayonda bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 21 milyon 76,1 min manat olub ki, bunun sayəsində 106 yeni iş yeri yaradılıb.***



Yeni açılmış iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə 1-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 3-ü mədənçıxarma sənayesində, 3-ü emal sənayesində, 38-i tikintidə, 3-ü su təchizatı, tullantıların təmizlənməsi və emalı, 32-si ticarət; nəqliyyat vasitələrinin təmiri, 1-i nəqliyyat və anbar təsərrüfatı, 1-i inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 8-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi və 15-i istirahət, əyləncə və incəsənət sahələrində yaradılıb.

Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunub.

# “Qaçqınkom”la Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti birgə tədbirlər keçirilib

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) əməkdaşlığı, Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) dəstəyi ilə “Cənubi Qafqazda aztəminatlı yerli əhalinin və məcburi köçkünlərin sosial-iqtisadi inkişafı” layihəsi həyata keçirilir.***

”Unikal” xəbər verir ki, həmin layihə çərçivəsində Bərdə və Mingəçevirdə Beynəlxalq Zorakılığın Aradan Qaldırılması Uğrunda Mübarizə Günü münasibətilə BMT-nin elan etdiyi “Gender zorakılığına qarşı 16 günlük fəallıq” kampaniyasına həsr olunmuş ictimai müzakirə və forum-teatr təşkil olunub.

Məcburi köçkünlərin müvəqqəti məskunlaşdıqları qəsəbələrdə gerçəkləşdirilən tədbirlərdə Dövlət Komitəsinin məsul əməkdaşları və GİZ-in nümayəndələri, yerli sakinlər



və mütəxəssislər iştirak ediblər.

Bərdədə yerləşən, Ağdam 1 saylı tam orta məktəbdə gender zorakılığına qarşı mübarizə mövzusunda keçirilən müzakirələrdə müəllim və şagirdlər Dövlət Komitəsinin gender komandası üzvlərinin, Gənc Psixoloqlar İctimai Birliyinin psixoloq-mütəxəssislərin çıxışlarını maraqla dinləyiblər, müzakirələrdə fikir və mülahizələrini bildiriblər.

Tədbir başa çatdıqdan sonra Dövlət Komitəsinin nümayəndələri Ağcabədi Regional Mədəniyyət İdarəsinin Ağdam Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 42 saylı Qalayçılar Kənd Kitabxanasına 1 ədəd kompüter dəsti və 154 nüsxə kitab ianə ediblər.

Sonra Mingeçevir şəhərindəki 504 məcburi köçkün ailəsi üçün salınmış qəsəbədə “Dünyanı Narıncıya Boyayaq” adlı forum-teatr təşkil olunub. Həvəskar gənclərin təqdim etdiyi iki tamaşada məqsəd ictimaiyyətin diqqətini gender zorakılığına qarşı fəallığa cəlb etmək olub. Formata uyğun olaraq məcburi köçkünlər də forum-teatrda fəal iştirak ediblər.

“Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyasına həsr olunmuş tədbir fəal iştirakçılara sertifikatların verilməsi, həmçinin GİZ-in məcburi köçkün gənclər arasında keçirdiyi fotomüsabiqənin qaliblərinin mükafatlandırılması ilə yekunlaşıb.

# “Kənddən Şəhərə” həftəsonu yarmarkaları keçiriləcək

***Dekabrın 10-11-də Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Kənddən Şəhərə” həftəsonu yarmarkaları təşkil olunacaq.***

Nazirlikdən “Unikal”a bildirilib ki, Bakı və Abşeron ərazisində baş tutacaq “Kənddən Şəhərə” həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Budəfəki yarmarkalarda ümumilikdə 40-dan artıq regiondan gələcək 70-dən artıq fermer tərəfindən 80-ə yaxın çeşiddə təbii kənd təsərrüfatı və qida məhsullarının satışı həyata keçiriləcək.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilərək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçirilən ünvanlara qədər daşınacaq.

“Kənddən şəhərə” yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət gös-



tərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının çıxışı)
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

# Nazirlik rəsmilərini döyən şəxs hakim qarşısına çıxarılır

***20 sentyabr 2022-ci il tarixdə Mingəçevir şəhərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 8 saylı Ekologiya və Təbii Sərvətlər İdarəsində su hövzələrində bioloji müxtəlifliyin qorunmasına nəzarət qrupunun baş mütəxəssis yegeri vəzifəsində işləyən Bəhruz Mustafayevə və nazirliyin Nəqliyyat və Kompleks Mexaniki Təminat İdarəsində matros vəzifəsində işləyən Toğrul Rəhimliyə qarşı zor tətbiq olunması faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.***

Bu barədə “Unikal”a Mingəçevir şəhər prokurorluğundan bildirilib. Belə ki, istintaqla müəyyən edilib ki, Mingəçevir şəhər sakini Şaban Məmmədov qeyd edilən tarixdə “Kür” çayının Mingəçevir şəhəri ərazisindən keçən hissəsində qanunsuz balıq ovu etmək məqsədilə quraşdırdırdığı balıq torlarına qayıqla nəzarət edərkən Bəhruz Mustafayev və Toğrul Rəhimli xidməti istifadələrində olan qayıqla yaxınlaşaraq ona qanunvericiliyin tələbini izah etməklə, barəsində inzibati protokol tərtib ediləcəyini nəzərinə çatdırdıqda Şaban Məmmədov qayıqda olan benzin məhlulunu götürüb nazirliyin balansında olan qayıqa töküb alışqanla yandırmış, nəticədə Bəhruz Mustafayev və Toğrul Rəhimli müxtəlif dərəcəli yanıq xəsarətləri almışlar. Şaban Məmmədov Cinayət Məcəlləsinin 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddəsi ilə təqsirləndirilirən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Salyan, Neftçala və Sabirabadda melioratov tədbirlər icra olunur

***Salyan, Neftçala və Sabirabadda melioratov tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 1977-ci ildən fəaliyyətə başlayan Aşağı Muğan Meliorativ Sistemlərinin İstismarı İdarəsi Salyan, Neftçala və Sabirabad rayonlarında 132500 hektar əkin sahəsinə qulluq edir.***

Adıçəkilən rayonların ərazisində 3260 km-dən artıq kollektor drenaj sitemləri mövcuddur. Kollektor drenaj sistemlərinin üzərində isə 3226 ədəd hidrotexniki qurğular var. Hidrotexniki qurğulardan bu il 47 ədədi cari təmir olunub. İdarə tərəfindən il ərzində



mütəmadi olaraq lildən təmizləmə işləri də həyata keçirilir. Bu ilin əvvəlindən etibarən mexanizmlər vasitəsi ilə 430 km-dən artıq məsafədə lildən təmizləmə işləri görülüb. Dənizə vurulan drenaj suları-710 mln.m3, dənizə axıdılan duz isə 3.191 min ton olub.

Aşağı Muğan Meliorativ Sistemlərinin İstismarı İdarəsinin balansında 25 nasos stansiyası fəaliyyət göstərir və onların məhsuldarlığı 85m3/san təşkil edir. 2022-ci ildə Salyan, Neftçala və Sabirabad rayonlarında 32000 hektara yaxın pambıq, 60000 hektara yaxın taxıl, 42000 hektara yaxın yem bitkiləri əkilib. İdarə tərəfindən plana uyğun olaraq balansda olan 10 ədəd nasos stansiya, 68 ədəd nasos aqreqatları və 71 ədəd elektrik mühərrikləri təmir olunub.

Qeyd edək ki, hazırda idarənin 20-ə yaxın mexanizmi vasitəsi ilə Salyan, Neftçala və Sabirabad rayonlarının 15-ə yaxın kəndində lildən təmizləmə işləri davam edir.

Baş Mil-Muğan Kollektoru lildən təmizlənir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Baş Mil-Muğan Kollektorunda lildən təmizləmə işləri həyata keçirilir.

Hazırda Baş Mil Muğan Kollektoru İstismarı İdarəsinin texnikaları bir-neçə istiqamətdə bu işləri davam etdirir. Ümumiyyətlə Baş Mil Muğan Kollektorunun əsas məqsədi Mil-Qarabağ və Muğan -Salyan düzlərinin suvarılan torpaqlarından sızan qrunt, sel və məişət sularının Baş Mil Muğan Kollektoru vasitəsilə maneəsiz, heç bir enerji sərf etmədən öz axını ilə Xəzər dənizinə axıtmaqdır. İdarə 447 km-ə yaxın magistral və təsərrüfatlararası kollektoru onların üzərində 47 ədəd hidrotexniki qurğunu, 3 ədəd hidropostu, 65 ədəd körpünü, Baş Mil Muğan Kollketoru boyunca 140 km-lik örtüklü yolu, 1068 km təsərrüfat daxili kollektor-drenaj şəbəkəsini və onların üzərində 1086 ədəd borulu su buraxıcını istismar edir. Kollektorlarla xəzər dənizinə 2022- ci ilin 10 ayında 1697.722 min m3 su axıdılıb.

Baş Mil Muğan Kollektoru İstismarı İdarəsi tərəfindən balansda olan nasos stansiyaların hər biri saz vəziyyətdə saxlanılır. Hazırda nasos stansiyada əsaslı təmir işləri aparılır, yeni bina inşa edilir. İstifadəyə veriləcək olan nasos stansiya 9000 ha sahəyə xidmət göstərəcək ki, həmin ərazilərdə şoranlaşmanın qarşısı alınacaq, torpaqların münbitliyi artacaq. Bu isə məhsuldarlığa müsbət təsirini göstərəcək.

Qeyd edək ki, Baş Mil-Muğan Kollektorunun ümumi uzunluğu 140 km-dir. Bundan 22 km-i Salyan, 18 km-ə yaxını Sabirabad, 37 km-i Neftçala, 63 km-i isə Saatlı rayonunun ərazisinə düşür.

Neftçalada növbəti suvarma mövsümünə hazırlıq gedir. Dilqəm Şərifov bildirib ki, Neftçala Suvarma Sistemləri İdarəsi rayon ərazisində suvarıla bilən 38 min hektardan artıq əkin sahəsinin suvarılmasına xidmət edir. İdarə tərəfindən 2022-ci ildə əkilən 21500 taxıl sahəsi 2.6 dəfə, 8790 hektar pambıq sahəsi 3.7 dəfə, 6072 hektar yonca sahəsi 9.1 dəfə, digər əkinlər -bostan- tərəvəz h?y?t yanı, qarğıdalı və bağ sahələri orta hesabla 9.3 dəfə suvarılıb və suvarma uğurla yekunlaşıb. Bundan başqa idarənin balansında olan 1369 ədəd hidrotexniki qurğulardan 26 ədədində cari təmir işləri aparılıb. Su itkilərinin qarşısını almaq məqsədilə idarənin balansında əsaslı təmirə ehtiyacı olan latok sisteminin 900 metrlik hissəsində hazırda yeni nov sistemi çəkilməkdədir.

2022-ci ilin 10 ayında idarənin balansında olan 1026 km kanaldan, 314 km-də lildən təmizləmə işləri aparılıb. Növbəti ilin məhsulu üçün 21000 hektar taxıl, 6500 hektar pambıq, 8400 hektar yem v? 2258 hektar digər bitkilərin suvarılması planlaşdırılır ki, adıçəkilən sahələrin suvarma suyu ilə təminatı üçün suvarma kanallarının lildən təmizlənməsi sürətlə davam edir. Görülən meliorativ tədbirlər nəticəsində hər il əkin aparılan sahələrdən bol məhsul əldə edilir.

Suvarma mövsümü yekunlaşsa da Neftçala Suvarma Sistemləri İdarəsi tərəfindən 2023-cü ilin məhsulu üçün əkilən 5160 hektar taxıl sahəsinin, 1180 hektarında, 740 hektar yem sahəsinin 660 hektarında artıq suvarılma aparılıb.

***Hüseyn İsgəndərov***




# Vətən sevdalısı Zülfü Ağayev

***İkinci Qarabağ müharibəsində Vətənin harayına vaxtında özünü yetirən və bu yolda şəhidlik zirvəsinə ucalmaqla xalqına başucalığı gətirən minlərlə qəhrəmanlardan bir də Zülfü Ağalı oğlu Ağayevdir. 1977-ci ildə Astara rayonunun Vaqo kəndində dünyaya göz açan Zülfü doğma Azərbaycana, onun torpağına, daşına sonsuz məhəbbət göstərə-göstərə boya-başa çatır.***

Ordu sıralarına yola düşəndə onun yeganə arzusu yağı tapdağına dönən, müqəddəsliyinə tapındığı Vətənin bir parçası Qarabağ torpaqları azad görmək olur. Vaxtı gələndə bu yolda son damla qanına qədər vuruşacağına and da içir. "Təki bizə məxsus torpaqların bir qarşı da düşmən ayaqları altında qalmasın"- deyir.

Bəli, əyninə əsgər paltarı geyinən Zülfü əzəli Vətən torpaqlarının azadlığı naminə birbaşa səngərə, ermənilərlə döyüşə can atır. Əlinə silah götürüb qaynar bölgədə adına can dediyi Azərbaycanın keşiyini çəkir. Təmiz ürəkli, vicdanlı, qeyrətli, əsgər yoldaşları arasında seçilən, sevilən, dosta sədaqətli gənc oğlan düşmənin hər bir hərəkətinə göz qoyur, verilən tapşırıqları sözsüz yerinə yetirir. Zülfü qarşısına çıxan çətinliklərə Vətən naminə mərdliklə sinə gərir. Nümunəvi xidməti, təlimlərdə əla döyüş keyfiyyətləri daim ona başucalığı gətirir. Vətən sevdalısının həqiqi hərbi xidməti başa çatsa da, amma o, ordudan tərxis olunmur. Ömrünü hərbiyə bağlamaqla, ürəyinin ağrısı olan erməni dığalara əməlli-başlı dərs verəcəyi günü gözləyir...

Zülfü Ağayev hərbi elminin sirlərinə yaxından bələd olmaqdan ötrü Müdafiə Nazirliyinin "Gizir hazırlıq" kursunda oxuyub tankçı peşəsinə yiyələnir. Aprel döyüşləri başlananda Zülfü də qeyrətli Vətən oğulları sırasında qorxmadan, çəkinmədən özünü odun-alovun içinə atır. Düşmənin anasını ağladıb, uzun müddət işğal altında olan Lələ-təpə, eləcə böyük bir ərazi düşməndən azad edilir. Düşmən Azərbaycan əsgərinin gücünü, güvəsini görüb vahiməyə düşür...

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin ilk günündə baş gizir Zülfü yenə də öndə gedir. Onun qalibiyyət sorağı ən qaynar nöqtələrdən gəlir. Zəfərə gedən yolda mərdliklə vuruşur, bir-birindən çətin döyüşlərdə fərqlənir. Necə deyərlər, silahdaşları ilə çiyin-çiyinə vərərək erməni dığalarına od qoyurlar. Füzuli rayonu düşməndən təmizlənsə də, ordumuzun bu tarixi qələbədə bir çox qəhrəmanlar kimi Zülfünün Vətən eşqli qəlbi düşmən gülləsinə tuş gəlir. "Qarabağ Azərbaycandır!"- deyib əbədi gözlərini yumur. Beləcə 24 il canından artıq sevdiyi Azərbaycana ləyaqətlə, vicdanla xidmət edən Zülfü milyonlara örnək olan qəhrəmanlıq zirvəsinə ucalır. Astaralılar daim öz oğlunun adını qürurla çəkir, dövlət tərəfindən ölümündən sonra layiq görüldüyü "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları bir daha bu ada şərəf qatır...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Anar Kərimov UNESCO-ya çağırış etdi

***Torpaqlarımız azad ediləndən sonra Azərbaycan UNESCO-ya dəfələrlə müraciət edib.***

"Unikal"ın məlumatına görə, bunu bu gün "Mədəni sərvətlərin mühafizəsi və onların həyata keçirilməsinin təkmilləşdirilməsi aspektlərinə dair YUNESKO Konvensiyalarının Rolu" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı Azərbaycanın mədəniyyət naziri Anar Kərimov deyib.

Nazir bildirib ki, bütün bu müraciətlərə baxmayaraq, UNESCO missiyasını yerinə yetirməyib, öz öhdəliyini icra etməyib: "Bu təşkilatın siyasi motivlər üzərində texniki missiyanı həyata keçirməməsi onun nüfuzuna böyük bir xələl gətirib. Konfransdan istifadə edərək UNESCO-ya çağırış edirik və öz mandatını yerinə yetirməyə səsləyirik", - A.Kərimov deyib.

# Zelenski müharibənin gələn il bitəcəyini etiraf etdi



***Ukrayna prezidenti Volodimir Zelenski "Politico"ya videomüraciətində Ukraynadakı münaqişənin 2023-cü ildə bitəcəyini təklif edib.***

"Unikal" xəbər verir ki, bu barədə "RİA Novosti" məlumat yayıb.

"Ukraynalılar gələn il də ən nüfuzlu olacaqlar, lakin sülh dövründə", - Zelenski deyib.

Bir gün əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvanın Rusiyanın maraqlarını nəzərə alacağı təqdirdə Ukraynada ciddi sülh təklifini müzakirə etməyə hazır olduğunu bildirmişdi.

Ötən həftə ABŞ dövlət katibi Entoni Blinken qeyd edib ki, Ukraynada münaqişədən çıxış yolu var, lakin bu, Rusiyanın qərarlarından asılıdır.

*Gülayə*

# İranın keçmiş prezidenti ölkədəki aksiyalara dəstək verdi

***İranın keçmiş prezidenti Məhəmməd Hatəmi ölkədə 3 aydır aksiyalar keçirən etirazçılara dəstək verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Hatəmi açıqlama yayıb. Onun sözlərinə görə, İran cəmiyyəti "Qadın, həyat, azadlıq" şüarı ilə daha yaxşı gələcək arzusunu nümayiş etdirir.

"Azadlıq və təhlükəsizlik bir-birinə zidd olmamalıdır. Təhlükəsizlik naminə azadlıq pozula bilməz və azadlıq naminə təhlükəsizliyə laqeyd yanaşmaq olmaz", - deyə sabiq prezident bildirib.

Qeyd edək ki, Hatəmi 1997-2005-ci illərdə İranın prezidenti olub.

*Ağarza Elçinoğlu*

# Donetskdə 186 şaxtaçı yerin altında qalıb



***Dekabrın 8-də Ukrayna Silahlı Qüvvələrinin atəşə tutması nəticəsində Donetskdə beş şaxta işıqsız qalıb.***

"Unikal" xəbər verir ki, bu barədə özünü elan edən DXR-in Kömür və Energetika Nazirliyi məlumat yayıb.

Məlumata görə, hazırda yerin altında 186 şaxtaçı var.

*Ağarza*

# Britaniya Rusiyaya sanksiya tətbiq edəcək

***Böyük Britaniya 9 dekabrda Rusiyaya qarşı sanksiya tətbiq edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Bloomberg nəşri məlumat yayıb.

Sanksiya paketində fiziki və hüquqi şəxslərin adları yer alır.

# ABŞ-da dövlət işçilərinə "TikTok"dan istifadə qadağan edildi

***ABŞ-da hökumət işçilərinə "TikTok"dan istifadə qadağan edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Texas qubernatoru Qreq Ebbot sərəncam imzalayıb. Məhdudiyyət yalnız dövlət qulluqçularına işlədikləri təşkilatlar tərəfindən verilən xidmət cihazlarına şamil edilir. Bunlara təkcə smartfonlar deyil, planşetlər, həmçinin kompüterlər və noutbuklar da daxildir. Sifariş Çin hakimiyyətinin "TikTok" tətbiqi vasitəsilə həyata keçirə biləcəyi telefon dinləmələri qorxusuna görə qəbul edilib.

Oxşar sərəncamı Cənubi Dakota ştatının qubernatoru Kristi Noem də verib.

*Ağarza Elçinoğlu*

# Perunun yeni prezidenti and içdi



***Cənubi Amerika ölkəsi Peruda vitse-prezident Dina Boluarte ölkənin yeni prezidenti kimi and içib.***

"Unikal" xəbər verir ki, keçmiş prezident Pedro Castillo Konqres tərəfindən "daimi əxlaqi səriştəsizlik" ittihamı ilə vəzifəsindən azad edildikdən sonra Boluarte ölkənin ilk qadın prezidenti olaraq andiçmə mərasimi keçirib.

Boluarte alqışlarla daxil olduğu Konqresdəki çıxışında " 26 iyul 2026-cı ilə qədər prezidentliyimi sədaqətlə yerinə yetirəcək və Peru konstitusiyasını müdafiə edəcəyimə Allah, ölkə və bütün Perulular adına and içirəm", - deyib.

Qurumlarda heç bir reaksiya verilməyən bir çevriliş cəhdinin olduğunu vurğulayan Boluarte, "Böyük məsuliyyət şüuru ilə bu vəzifəni öhdəmə götürürəm və ilk işim bütün Peruluları ən əhatəli şəkildə birliyə çağırmaqdır. Bizi dialoq qurmaq və əldə etmək üçün bütün siyasi qüvvələr arasında geniş dialoqa çağırıram", - deyə ifadə edib.

Boluarte vətəndaşların əsas hüquqlarına hörmətlə yanaşacaqlarını və məqsədlərinin ölkənin ehtiyac duyduğu siyasi və iqtisadi islahatları həyata keçirmək olduğunu bildirib.

*Gülayə Mecid*

# "Putin rusları uzun sürən müharibəyə hazırlayır"



***"Rusiya prezidenti Vladimir Putin Ukraynada uzun sürən işğalçılıq müharibəsi üçün şərait yaradır".***

"Unikal" xəbər verir ki, bu barədə Amerika Müharibənin Tədqiqi İnstitutunun (ISW) analitikləri bəyanat yayıblar.

Bildirilir ki, Vətəndaş Cəmiyyətinin İnkişafı və İnsan Haqları Şurası ilə görüşü zamanı Putin "Rusiya Federasiyasında "xüsusi əməliyyat" adlandırılan Ukrayna müharibəsi "uzun proses" ola bilər və yeni ərazilərin ələ keçirilməsi Rusiya üçün mühüm nəticədir",- deyib.

Bundan əlavə, analitiklər qeyd ediblər ki, Putin bu görüşdə özünü rus çarı Birinci Pyotrla müqayisə edib və Rusiyanın indi çarın uğrunda mübarizə apardığı Azov dənizinə nəzarət etdiyini bildirib.

"Rusiya imperiya tarixinə bu istinad Putinin Ukraynadakı hazırkı məqsədlərini açıq şəkildə imperialist və hələ də maksimalist kimi göstərir. Putin Rusiyanın daxili auditoriyasını Ukraynada uzun sürən, yorucu müharibəyə hazırlayır, məqsədi Ukraynanın yeni ərazilərini zəbt etməkdir".

# Zaxarovanı təhqir edən bloger axtarışa verildi



***Rusiya Federasiyası Daxili İşlər Nazirliyi Kamikadze Di təxəllüsü ilə fəaliyyət göstərən YouTube bloqçusu kimi tanınan 36 yaşlı Dmitri İvanovu federal axtarışa verib.***

"Unikal" gazeta.ru-ya istinadən xəbər verir ki, o, Rusiya Federasiyasında xarici agent kimi tanınıb.

Bildirilir ki, sentyabrda ona qarşı Rusiya Silahlı Qüvvələri ilə bağlı saxta xəbərlərə görə cinayət işi açılıb. İşin başlanmasına səbəb İvanovun Mariupoldakı dram teatrına hava hücumu ilə bağlı videoları olub. Bundan başqa, hüquq-mühafizə orqanları Kamikadze Dinin Rusiyanın xarici işlər naziri Mariya Zaxarovanı təhqir etdiyi klipləri ilə də maraqlanıb.

Həmin ay Rusiya Ədliyyə Nazirliyi bloqqeri xarici agent kimi fəaliyyət göstərən şəxslər siyahısına daxil edib.

Kamikadzedead YouTube kanalının 1,7 milyon abunəçisi var. Orada hər gün siyasi mövzularda videolar görünür və orta hesabla 100.000-ə qədər baxış toplanır.

*Gülayə Mecid*

# DÇ-2022 zamanı Almaniya millisində qalmaqal olub

*Qətərdə təşkil olunan DÇ-2022-zamanı Almaniya millisində qalmaqal yaşanıb.*

Bu barədə "Bild" məlmat yayıb. Milli komanda düşərgədə iki hissəyə bölünüb - "Bavariya"nın oyunçuları və digərləri. Baş məşqçi Hans-Diter Flik "Bavariya"nın oyunçularına qarşı xüsusi münasibətdə ittiham olunub. Bu da komanda daxilində ixtilaf yaradıb. Flik ona görə də bütün komandanın rəğbətini qazana bilməyib.




Problemlər DÇ-2022-nin qrup mərhələsinin 1-ci turunda Yaponiya ilə oyunundan (1:2) əvvəl başlayıb. Matç ərəfəsində "One Love" sarğısı ətrafında müzakirələrə Manuel Nouer və Leon Goretzka başlayıb. Onlar israrla oyunöncəsi komanda ilə foto çəkilişi zamanı ağzını örtmək lazım olduğunu bildiriblər. Digər oyunçular isə heç bir siyasi aksiyada iştirak etmək istəməyiblər.

Yaponiya ilə oyun zamanı bir çox futbolçu Flikin İlkay Gündoğanın yerinə Qoretskanı buraxma qərarını anlamayıb. İlkay isə bu qərara görə qəzəblənib. Mark-Andre ter Ştegen və Kay Havertz dünya çempionatında oyuna ehtiyat oyunçular skamyasında başladıqları üçün məyus olublar. "Barselona"nın qapıçısı xüsusilə klubdakı çıxışlarına rəğmən şans qazanmadığına görə təəssüflənib.

"Bavariya"da Flikin baş məşqçiliyi altında oynayan, hazırda "Borussiya" Dortmundun şərəfini qoruyan Niklas Süle ilk oyunda zəif çıxış etməsinə baxmayaraq, meydana çıxıb. Niko Şlotterbek və Mattias Ginter isə şans qazanmayıb.

Bütün bunlar yığmanın daxilində ciddi problemlərə yol açıb.

Bundan başqa, Almaniya millisinin baş məşqçisi Hans-Diter Flik futbolçulara Qətərdə keçirilən dünya çempionatı zamanı ailələri ilə oteldə gecələməyə icazə verib. Almaniya Futbol Federasiyasının (DFB) əməkdaşları ərləri uşaqları ilə oynayarkən bir çox futbolçunun arvadlarının hovuzda selfi çəkdirdiyini görəndə təəccübləniblər. Onlar komandanın bayram əhval-ruhiyyəsində olduğunu bildiriblər. DFB bunu Almaniya millisinin Qətərdəki uğursuz çıxışının səbəblərindən biri hesab etsə də, Flik bununla razılaşmayıb.

Xatırladaq ki, DFB dünən Fliklə əməkdaşlığı davam etdirmək qərarına gəlib.

Qeyd edək ki, Almaniya yığması DÇ-2022-də E qrupunu 4 xalla üçüncü sırada başa vuraraq turnirlə erkən vidalaşıb.

Əlavə edək ki, Flik 2019-2021-ci illərdə "Bavariya"nı çalışdırıb. O, ötən ildən yığmanın baş məşqçisidir.

# 55 yaşlı hücumçu klubunu dəyişdi

***"Yokohama"nın (Yaponiya) icarə əsasında "Suzuka"da çıxış edən 55 yaşlı futbolçusu Kazuyoşi Miura klubunu dəyişib.***

Qol.az xəbər verir ki, bu barədə "A Bola" məlumat yayıb. Hücumçu Portuqaliyanın 2-ci divizionunda mübarizə aparan "Oliveyrens"ə transfer olunub.




Qed edək ki, Miura peşəkar səviyyədə ilk matçını 1986-cı ildə "Santos"da keçirib. O, karyerası ərzində Braziliya, Yaponiya, İtaliya, Xorvatiya və Avstraliya klublarında çıxış edib. 2020-ci ildə Miura "Ventforet Kofu"nun futbolçusu Yukio Tsuşiyanın 2017-ci ildə əldə imza atdığı rekordu qırıb - .42 yaş 10 aylığında Yaponiyanın əsas çempionatında çıxış edib. Nəticədə o, bunu bacaran ən yaşlı futbolçu olub. Həmçinin Yurgen Klopp, Pol Kaskoyn və Roberto Baccio ilə eyni ildə anadan olan Miura, 5 fərqli onillikdə oynayan ilk peşəkar futbolçu adını qazanıb. Miura 2005-ci ildən "Yokohama"nın oyunçusu idi.

# Zlatan: "Ümid edirəm ki, Messi üçün mundialı qazanarlar"

*İsveç millisinin üzvü və "Milan"ın futbolçusu Zlatan İbrahimoviç Argentinanın DÇ-2022-nin qalibi olacağına ümid edir.*

Qol.az "TyC Sports"a istinadən xəbər verir ki, bu barədə 41 yaşlı hücumçu özü açıqlama verib. O, "Barselona"dakı sabiq komanda yoldaşı, Argentina millisinin üzvü Lionel Messiyə görə bu yığmanın mundialı qazanmasını istədiyini bildirib: "Ümid edirəm ki, Argentina Messi üçün düny çempionatını qazanar".



Qeyd edək ki, Zlatan və Messi 2009-2011-ci illərdə "Barselona"da birgə çıxış ediblər. Əlavə edək ki, Argentina millisi DÇ-2022-nin 1/4 final matçında Niderland ilə qarşılaşacaq. Oyun dekabrın 9-da keçiriləcək.

# Ronaldo daha bir rekord qırdı

*Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo dünya rekorduna imza atıb.*



"Unikal" xəbər verir ki, 37 yaşlı hücumçunun DÇ-2022-nin 1/8 finalında İsveçrə ilə matçı (6:1) 400-cü beynəlxalq oyunu olub. İndiyədək heç kim 400 beynəlxalq oyun həddinə çatmayıb.

Bu barədə Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) məlumat yayıb.

Ronaldo bu 400 matçın 195-ni millidə, 205-ni isə klubların heyətində avrokuboklarda keçirib. Forvard Çempionlar Liqasında 187, Avropa Liqasında 8, klublararası dünya çempionatının 8, UEFA Superkubokunda isə 2 görüşdə meydanda olub.

# "Qarabağ"ın rəqibi kubokun sahibi oldu



***"Qarabağ"ın Konfrans Liqasının pley-off mərhələsində rəqibi Belçika "Gent"i Kornelis kubokunu qazanıb.***

Komanda yoxlama oyununda "Çillaks Arena"da "KSK Gent"lə qarşılaşıb və 5:0 hesabı ilə qalib gəlib.

"Gent"- "KSK Gent" - 5:0

Qollar: Hyulsaqer, 2, Kuypers, 15, 40, Honq, 23, Hayqe, 48

Qeyd edək ki, "Qarabağ" "Gent"ə qarşı ilk matçını fevralın 16-da evdə, cavab qarşılaşmasını isə fevralın 23-də səfərdə keçirəcək.

# Mərakeş onu milyonçu etdi

***Bukmeker kontorlarında növbəti böyük uduş qeydə alınıb.***



Apasport.az saytının məlumatına görə, proqnozsever DÇ-2022-nin 1/8 final mərhələsinin Mərakeş - İspaniya matçına mərc edib.

O, Afrika təmsilçisinin 12,0 əmsalla dəyərləndirilən mərhələ adlayacağına böyük vəsait yatırıb. Better 90 min 818 dollarlıq mərc edib.

Əsas və əlavə vaxtı qolsuz bitən görüşün taleyi penaltilər seriyasında həll olunub. Mərakeş 3:0 hesablı qələbə qazandıqda proqnozsever də böyük uduş əldə edib. Onun uduşu 1 milyon 89 min 818,28 dollar olub.

Qeyd edək ki, Mərakeş 1/4 finalda Portuqaliya ilə qarşılaşacaq.

# "Çelsi"dən 70 milyonluq transfer




***Fransa millisinin və "Leypsiq"in futbolçusu Kristoffer Nkunkunun yeni klubu müəyyənləşib.***

Apasport.az saytının məlumatına görə, hücumçu karyerasını "Çelsi"də davam etdirəcək.

Onun keçidi ilə bağlı razılıq əldə olunub. 2023-cü ilin yayında İngiltərə klubuna yollanacaq Nkunku 5 illik müqavilə imzalayacaq. Londonlular bu transfer üçün 70 milyon avro ödəyəcək.

Qeyd edək ki, forvard cari mövsüm Bundesliqanın 15 matçında 2 qol vurub.